# Məhəmməd əxlaqı

Böyük Rəhbər Ayətullah Xamenei

**Tərtib edən: Seyid Əli Musəvi**

Buyurdu: "Mən yalnız gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm". Bu "yalnız" sözünün mənası odur ki, mənim peyğəmbərliyim ümumiyyətlə, bunun üçündür, məqsəd budur, digərləri müqəddimədir. Yəni cəmiyyətdə, insanların və bu ümmətin arasında gözəl əxlaq kamilləşsin, inkişaf etsin, hamı ondan bəhrələnsin və insan olaq.[1]

---

[1] İnqilabın Böyük Rəhbərinin İslam Respublikasının məsul şəxsləri ilə görüşündəki çıxışından: 1996.

## Bir neçə saniyə!

Bu gün İslam ümməti və bizim xalqımız özünün əzəmətli Peyğəmbərinə (s) həmişəkindən daha çox ehtiyaclıdır; onun hidayətinə, onun müjdə verməsinə və qorxutmasına, onun sözünə və mənəviyyatına və onun insanlara dərs və təlimlə göstərdiyi mərhəmətə ehtiyaclıdır. Bu gün İslam Peyğəmbərinin (s) öz ümmətinə və bütün bəşəriyyətə dərsi alim və güclü olmaq dərsi, əxlaq və ucalıq dərsi, mərhəmət dərsi, cihad, izzət və müqavimət dərsidir. Bizim xalqımız Peyğəmbərin (s) dərslərini nəzərdən keçirməli və onları özünün həyat dərslərinə və cari proqramlarına çevirməlidir. Bizim xalqımız Peyğəmbər (s) məktəbinin şagirdliyi və Peyğəmbər (s) dərsi ilə fəxr edir... Biz Peyğəmbərin (s) əxlaq dərsini, əzəmətli Peyğəmbərin (s) izzət dərsini, onun bizə öyrətdiyi və bizim həyat dərslərimizdən olan elm öyrənmək dərsini, mərhəmət, ucalıq və birlik dərsini öz həyatımızın proqramlarına salmalıyıq.[1]

Bizim müsəlman cəmiyyətimiz o zaman sözün həqiqi mənasında kamil müsəlman cəmiyyəti olar ki, özünü Peyğəmbərin (s) rəftarı ilə uyğunlaşdırsın. Əgər o həzrətin rəftarına yüz faiz uyğun olmasa da - təbii ki, uyğun deyil - ən azı ona bənzəsin. Əziz Peyğəmbərin (s) həyat axınının əksi bizim həyatımıza hakim olmasın; o xətdə hərəkət edək.[2]

---

[1] Yeni il münasibəti ilə müraciətdən: 2006.

[2] Tehranın cümə namazı xütbələrindən: 1991.

## Süqutun zirvəsində

O həzrətin doğumu dünyanın və tarixin elə bir dövründə baş verdi ki, bəşəriyyət iki aşkar xüsusiyyətə malik idi. Bu iki xüsusiyyətin biri o idi ki, elm, ağıl və düşüncə baxımından özündən öncəki dövrlərdə yaşayan insanlara nisbətən çox inkişaf etmişdi. Onların arasında filosoflar yaranmış və alimlər meydana çıxmışdı. Böyük riyaziyyatçılar, həkimlər, mühəndislər və sivilizasiyalar baş qaldırmışdı. Bu sivilizasiyalar təbii ki, elmsiz yarana bilməzdi. Qərbdə akademiyalar, Şərqdə hikmətxanalar, Çin sivilizasiyası, Misir sivilizasiyası və böyük tarixi sivilizasiyalar olmuşdu; yəni bəşər kamilləşmişdi. Bu bir xüsusiyyət.

İkinci xüsusiyyətin birinci xüsusiyyətlə birləşməsi çox qəribə haldır. O da budur ki, o zaman bəşər əxlaq baxımından həmişə olduğunda daha aşağıda idi. Yaxud əgər bu müqayisəni söyləmək istəməsək, deməliyik ki, süqutun zirvəsində idi. Elm və biliyə malik olan həmin insan kəskin şəkildə təəssüblərin, xurafatın, eqoistliklərin, zülmün, xalqa qənim kəsilən antibəşəri hökumətlərin əsiri idi. Dünyada belə bir vəziyyət hakim idi. Əgər insan tarixə nəzər salsa, görəcək ki, o dövrdə bütün bəşəriyyət əsir idi. Əmirəlmömininin (ə) kəlamında deyildiyi kimi, bəşəriyyət fitnənin, çətinliyin, problemlərin və qardaş qırğınının zirvəsində idi.[1] Əmirəlmöminin (ə) həmin xütbədə buyurur: "Xalqın gözünə rahat yuxu getmirdi".[2]

---

[1] Nəhcül-bəlağə, xütbə: 2.
[2] Məsul şəxslərlə və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışından: 1993.

## Mərkəz nöqtə

Əziz Peyğəmbərin (s) adı, xatirəsi, sevgisi və hörməti bütün İslam dövrlərində bütün müsəlmanların birliyi üçün əsas mehvər olmuşdur. Dində bütün müsəlmanların və müsəlman firqələrinin bütün cəhətlərdən - həm əqli cəhətlərdən, həm duyğusal cəhətlərdən, həm psixoloji, mənəvi və əxlaqi cəhətlərdən bu şəkildə qəbul etdiyi, razılaşdığı və anlaşdığı başqa heç bir nöqtə yoxdur. Bu, mərkəz və mehvər nöqtədir.

Quran, Kəbə, vacib əməllər və etiqadlar müştərəkdir, amma bunların hər biri insan şəxsiyyətinin etiqad, məhəbbət, psixoloji təmayül, təqlid haləti və əməli oxşarlıq kimi bir cəhətini özünə cəlb edir. Bu deyilənlərin əksəriyyətinə müsəlmanların arasında müxtəlif izah və baxışlarla diqqət yetirilir. Lakin bütün müsəlmanların düşüncə, etiqad, hamısından mühüm, emosiya və hissiyyat baxımından birləşdiyi və anlaşdığı nöqtə sonuncu peyğəmbər və əziz elçi olan həzrət Məhəmməd ibn Abdullahın (s) müqəddəs varlığıdır. Bu nöqtəni uca tutmaq lazımdır. Bu sevgini günbəgün artırmaq, müsəlmanların və bütün xalqın zehnində o müqəddəs varlığa mənəvi və psixoloji təmayülü gücləndirmək lazımdır.[1]

---

[1] Peyğəmbərin (s) besət (peyğəmbərlik verilən) günündə dünyanın qırx ölkəsindən gələn Quran qiraətçiləri ilə görüşdə çıxışından: 1990.

## Yaxşı əxlaq nədir?

Bizim cəmiyyətimiz - fərdlər və toplumlar özlərini Peyğəmbərin (s) istədiyinə və çalışıb səy göstərdiyinə günbəgün yaxınlaşdırmalıdırlar. İslam Peyğəmbərinin (s) uca məqsədlərini bir cümləyə sığışdırmaq olmaz. Lakin onun bəzi başlıqlarını bir il, bir onillik və bir ömür boyunca nümunə götürmək olar.

Bir başlıq gözəl əxlaqı təkmilləşdirməkdən ibarətdir: "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm".[1] İnsanların yaxşı əxlaq və xarakterlərdən bəhrələnmədiyi cəmiyyət peyğəmbərliyin uca məqsədlərinə nail ola bilməz. Fərdi və cəmiyyəti uca insani məqamlara catdıran amil gözəl əxlaqdır. Gözəl əxlaq da yalnız xalqla yaxşı rəftar demək deyil, insanın öz qəlbində və ruhunda yaxşı xüsusiyyətləri və dəyərli xarakterləri yetişdirmək, onu öz əməlində əks etdirmək deməkdir. Öz aralarında paxıllığa düçar olan, bir-birinə qarşı bədxahlıq edən, hiyləgərlik edən, dünyagirliyə və dünya malına qarşı xəsisliyə düçar olan, bir-birinə kin bəsləyən bir cəmiyyətdə - hətta əgər qanuna dəqiq şəkildə əməl olunsa belə - səadət ola bilməz. Əgər elm inkişaf etsə və zahiri sivilizasiya əzəmətin sonuna çatsa da, bu cəmiyyət ideal bəşər cəmiyyəti deyil. İnsanların bir-birindən təhlükə hiss etdiyi, hər bir insanın ona paxıllıq edildiyini, bədxahlıq edildiyini, ona qarşı kin bəslənildiyini, təxribat aparıldığını, sərvətlərinə göz dikildiyini hiss etdiyi bir cəmiyyətdə rahatlıq ola bilməz. Amma əgər bir cəmiyyətdə xalqın qəlbinə və ruhuna əxlaqi dəyərlər hakim olsa, insanlar bir-birinə qarşı mehriban olsalar, bir-birinə bağışları, əfvləri və güzəştə getmələri olsa, dünya malına həris olmasalar, malik olduqlarına qarşı xəsislik göstərməsələr, bir-birinə paxıllıq etməsələr, bir-birinin inkişafı qarşısında maneə törətməsələr, xalqı dözümlü, hövsələli və səbirli osla, bu cəmiyyət hətta maddi baxımdan çox mütərəqqi olmasa da, insanlar orada aramlıq, dinclik və səadət hiss edərlər. Əxlaq budur. Bizim buna ehiyacımız

---

[1] "Bihar əl-ənvar", c. 16, səh: 210.

var. Biz öz qəlbimizdə İslam əxlaqını günbəgün yetişdirməliyik. İslamın fərdi və ictimai qanunları öz yerində bəşərin səadəti üçün vasitələrdir. Buna şübhə yoxdur. Amma həmin qanunların düzgün icrası üçün də yaxşı əxlaqa ehtiyac var.[1]

---

[1] Bəsic üzvləri ilə ümumi görüşdə çıxışından: 2006.

## O mahir həkimin günahı nədir?

Peyğəmbərliyin məqsədi insanın qurtuluşudur. Bunun mənası odur ki, Peyğəmbərin və İslamın xalqa verdiyi (təlim) bütün zamanlar üçün şəfaverici bir reseptdir; insanların cəhaləti qarşısında, zülmün və ayrıseçkiliyin bərqərar olunması qarşısında, güclülərin vasitəsi ilə zəiflərin hüququnun tapdanması qarşısında və xilqətin əvvəlindən bəşərin ah-nalə etdiyi bütün dərdlər qarşısında bir reseptdir. Bütün reseptlər kimi buna əməl olunsa, nəticə əldə olunacaq; əgər tərk olunsa, yaxud pis anlaşılsa, yaxud ona əməl etməyin cürəti və cəsarəti olmasa, yox kimi olacaq. Ən yaxşı həkim sizə ən düzgün resepti versə, amma siz onu oxuya bilməsəniz, yaxud pis oxusanız, yaxud əməl etməsəniz və nəticədə tərk olunsa, xəstənin vəziyyətinə təsir edə bilərmi? Və bu zaman o mahir həkimin günahı nədir?[1]

---

[1] İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1992.

### İlk gündən fəaliyyət

"Onlara kitabı və hikməti öyrətsin";[1] bunun üçün kitab və hikmət elminin əziz Peyğəmbərin (s) müqəddəs vücudunda yüksək həddə mövcud olması lazımdır. "Onları paklasın"; bunun üçün o pak vücudun bəşər təbiəti üçün ən yüksək imkan həddində paklanmış olması lazımdır. O, bu qüvvə ilə bir dünyanı paklığa sarı apara bilər. Bu, müxtəlif ideologiyaların rəhbərlərinin, müxtəlif fəlsəfi, ictimai, siyasi və digər nəzəriyyələrin banilərinin uzaq olduğu məsələdir. Onların beyninə bir şey gəlir, təsəvvür aləmində bəzi məsələləri anlayır və xalqa təhvil verirlər; kimlərsə onlardan öyrənir, yaxud öyrənmir. Bu, peyğəmbərlərin yolundan fərqlidir. Orada əvvəldən hərəkət var, fəaliyyət var. Onların dilində olan şüarlar əvvəldən əməllərində həyata keçir. Bu, əziz Peyğəmbərin (s) həyatında dəqiqliklə baş verdi. İlk andan öyrətmə, paklandırma və ədalətin bərpası yolunda hərəkət başlandı.[2]

---

[1] "Cümə"/2.

[2] Məbəs bayramında quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 1995.

## Uca insani əxlaq bayrağını ucaltmaq

Məbəs[1] əslində bəşəriyyət üçün yüksək və bənzərsiz xüsusiyyətlərə malik olan peyğəmbərlik və elçilik bayrağının ucaldılması günüdür. Məbəs əslində elm və bilgi bayrağını ucaltdı. Besət (peyğəmbərlik) "Oxu" sözü ilə, "Oxu! Yaradan Rəbinin adı ilə"[2] ayəsi ilə başlandı və "İnsanları hikmətlə və gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et!"[3] ayəsi ilə davam etdi; yəni hikmətlə yanaşı olan dəvət. İslam dəvəti əslində tarix boyu bütün dünyaya hikməti yaymaqdır. Necə ki, peyğəmbərlik ədalət bayraqdarlığı və bu bayrağı ucaltmaqdır. Yəni möminlər, Allah bəndələri və insanlar arasında ədalət bərqərar olunsun. Necə ki, risalət (Allah elçiliyi) uca insani əxlaq bayrağını ucaltmaqdır: "Mən yalnız gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm"[4]

Allah-Taala Peyğəmbərə (s) müraciətlə buyurur: "Biz səni yalnız aləmlərə rəhmət olasan deyə gönərdik".[5] Yəni bəşərin bütün zamanlarda, bütün şəraitlərdə və dünyanın hər bir nöqtəsində ehtiyaclı olduğu məsələlər bu peyğəmbərliyə salınmışdır; yəni elm və bilgi, hikmət və mərhəmət, ədalət, qardaşlıq və bərabərlik; sağlam insan həyatının bağlı olduğu əsas amillər. Hətta İslamda cihad təyin olunsa da və cihad zorakılıq və təcavüzə qarşı mübarizdən ibarət olsa da - əlbəttə, bəziləri bədxah şəkildə cihad hökmünə görə İslamı xəncər dini kimi təqdim ediblər - amma həmin İslam buyurur: "Əgər onlar sülhə meyl etsələr, sən də sülhə meyl elə və Allaha təvəkkül et!"[6] Yəni yenə də şəraitin uyğun olduğu yerdə sülhü müharibəyə tərcih et.[7]

---

[1] Məhəmməd peyğəmbərə (s) peyğəmbərliyin verildiyi gün.
[2] "Ələq"/1.
[3] "Nəhl"/125.
[4] "Bihar əl-ənvar", c. 16, səh: 210.
[5] "Ənbiya"/107.
[6] "Ənfal"/61.
[7] Məbəs günü münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2001.

## Möhkəm iradə və davamlı cihad

Əzəmətli peyğəmbərlik anından sonra İslamın əziz Peyğəmbərinin (s) mübarək ağzından tövhid fəryadının çıxdığı gün dünya küfr və zülm dünyası, əxlaqdan uzaq, insanın müxtəlif problem və fəsadlara qərq olduğu dünya idi. Bu böyük hərəkət Peyğəmbərin (s) həyatının 13 ilində möcüzəvi şəkildə davam etdi və 13 ildən sonra İslam ümmətinin ilk səmərəli nütfəsi Mədinədə qoyuldu. Bu mərkəzi nüvəni hicrətin dördüncü və beşinci əsrlərində İslam ümmətinin vəziyyətinə çevirə bilən amillər işıqlı imandan, aydın və hərtərəfli təlimlərdən, möhkəm iradədən və davamlı cihaddan ibarət idi. Mədinə şəhərinin bir neçə min nəfərlik kiçik cəmiyyətini hicrətin ilk illərində əzəmətli, iqtidarlı və izzətli bir ümmətə, dördüncü-beşinci əsrlərdə isə dünya üçün elm və hikmətin qaynar bulağına çevirə bilən bunlar idi. Tarix bunu bizə şərh edir. Sonra İslam ümməti özünün çoxlu yıxılıb-durmalarında və o təlimlərdən uzaqlaşdığı hər bir yerdə uğursuzluğa və geriliyə düçar oldu. Harada elmi, əxlaqı, ictimai münasibətləri, mənəvi iqtidarı, izzəti, birliyi və hamısından üstünü, ədaləti görməzdən gəldisə, inkişafı dayandı, geri lədi və elə bir həddə çatdı ki, təcavüzkar, işğalçı və tamahkar qüvvələr bu ümməti parça-parça edə, bir-birinin qarşısında qoyub bir-birinin gücünü zəiflətməyə vadar edə və onlara hakim olub sərvətlərini mənimsəyə bildilər.[1]

---

[1] Məbəs günü münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2004.

## Birlik üçün ən yaxşı səbəb

Bu gün İslam dünyasının böyük dərdlərindən biri də təfriqə və ayrılıq dərdidir. İslam dünyasının vəhdət mehvəri hamının etiqad nöqtəsi və bütün insanların duyğularının mərkəzləşdiyi yer olan Peyğəmbərin (s) müqəddəs varlığı ola bilər. Biz müsəlmanlar üçün Peyğəmbərin (s) müqəddəs vücudu kimi işıqlı və kamil bir nöqtə yoxdur. Müsəlmanlar həm ona etiqadlıdırlar, həm də etiqaddan əlavə, emosional və mənəvi bir rabitə müsəlmanların qəlblərini və duyğularını o müqəddəs varlıqda birləşdirmişdir. Bu, birlik üçün ən yaxşı mərkəzdir.

Təsadüfi deyil ki, biz bu son illərdə, Orta əsrlərdə və şərqşünasların qərəzli təhlilləri dövründə olduğu kimi, yenə də əziz Peyğəmbərə (s) qarşı təhqirin başlanmasını müşahidə edirik. Orta əsrlərdə və şərqşünasların tarixi əsərlər yazdıqları dövrdə məsihi keşişlərin öz yazılarında, sözlərində və sənət işlərində, qeyri-müsəlman və qərbli şərqşünasların da (öz əsərlərində) şübhə yaratdıqları və bəzən hörmətsizlik etdikləri nöqtə əziz Peyğəmbərin (s) müqəddəs və mübarək şəxsiyyəti idi. Uzun müddət fasilə düşmüşdü, amma son zamanlar yenə başladılar. Son bir neçə ildə insan dünyanın hər tərəfində əziz Peyğəmbərin (s) şəxsiyyətinə qarşı çirkli və mənfur bir mətbuat hücumunu və mədəni hücumu müşahidə edir. Bu, düşünülmüş şəkildə ola bilər. Çünki müsəlmanların əziz Peyğəmbərin (s) müqəddəs varlığı ətrafında, ona etiqadın, sevginin və eşqin ətrafında toplana bilmələri diqqət çəkmişdi. Odur ki, həmin mərkəzə qarşı şübhə yaradırlar.[1]

[1] 17 Rəbiüləvvəl (Peyğəmbərin (s) doğum günü) münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2000.

## İslam üçün ən böyük təbliğ

Əziz Peyğəmbərin (s) şəxsiyyətinin cəhətlərini heç bir insan kamil şəkildə bəyan etməyə və o həzrətin şəxsiyyətindən həqiqətə yaxın təsvir yaratmağa qadir deyil. Aləmlərin Rəbinin seçdiyi insan və tarixin bütün peyğəmbərlərinin sərvəri haqda bizim bildiyimiz o həzrətin mənəvi, daxili və həqiqi varlığının kölgəsi və ümumi təsəvvürüdür. Amma müsəlmanlar üçün əvvəla onların kamala doğru hərəkətini təmin edən və onların gözü qarşısında insaniyyət zirvəsini və bəşər təkamülünün ən uca nöqtəsini göstərmək, ikincisi isə onları İslam birliyinə və o mərkəz ətrafında toplaşmağa həvəsləndirmək üçün bu qədər tanışlıq da kifayətdir.

İslam üçün ən böyük təbliğ bəlkə də İslam Peyğəmbərinin (s) simasını dünyanın görənləri və axtaranları üçün işıqlandırmamızdır. Çox yaxşı olar ki, düşmənlər və müxaliflər özlərinin mürəkkəb mədəni və sənət üsulları ilə dünyanın xəbərsiz insanlarının zehinlərində o həzrətin simasını pis göstərməzdən öncə sənətkar, məlumatlı və dünyadakı müxtəlif üsulları bilən müsəlmanlar o əzəmətli və hörmətli şəxsiyyətə dair sözlə, təbliğatla və izahla elm, mədəniyyət, incəsənət və təbliğat işləri görsünlər. Biz əziz Peyğəmbərin (s) şəxsiyyətini tanıtdırmaq üçün işləməliyik, o həzrətin şəxsiyyətini, təkcə onun həyatını yox, vücudunun müxtəlif cəhətlərini, misal üçün xarakterlərini, hakimiyyət tərzini, xalqla rəftarını, ibadətini, siyasətini, cihadını və xüsusi təlimlərini araşdırmalıyıq. Yalnız kitab da yazmamalıyıq, yeni üsullarla və mövcud texnikalardan istifadə etməklə incəsənət və təbliğat işi başlamalıyıq və bunu təkcə İslam Respublikasında yox, İslam dünyasının hər tərəfində etməliyik.[1]

[1] İslam Birliyi konfransının qonaqları ilə görüşdə çıxışından: 1989.

## Cəmiyyətin tərbiyəsində Peyğəmbərin (s) üsulu

Bəzən bir adam əmr, yaxud tövsiyə edir ki, məsələn, xalqın yaxşı əxlaqı, bağışı, dözümü və Allah yolunda möhkəmliyi olsun, ədaləti bərqərar etməyə çalışsın. Burada tövsiyə etmək, əmr etmək və öyrətmək məsələsi var. Sözsüz ki, bu lazımi bir işdir. İslam Peyğəmbəri (s) də öyrədirdi, insanlara mərifət və dəyər dərsi verirdi. Amma bəzən məsələ öyrətməkdən də üstün olur. Yəni müəllim elə bir iş görür və elə rəftar edir ki, bu əxlaq və dini vəzifə cəmiyyətdə sabit rəng formasına düşür; insanların yanlış etiqadları ilə mübarizəyə qalxır, cahil hisslərlə və qeyri-İslam əxlaqının çöküntü və qalıqlarına qarşı mübarizə aparır, cəmiyyətə və xalqa şok verir, münasib dövrlərdə münasib üsullarla elə iş görür ki, cəmiyyətin ab-havası və xalqın yaşayış mühiti bu yaxşı xüsusiyyətlə, əxlaqla və üsulla tamamilə qarışır. Əgər bir cəmiyyət inkişaf etmək və özündə düzgün İslam əxlaqını vücuda gətirmək istəsə, bu üsula ehtiyaclıdır. Bəlkə də "onları paklandırsın" ifadəsinin "onlara öyrətsin" ifadəsindən sonra, yaxud öncə bəyan olunduğu bir neçə Quran ayəsində paklandırmada məqsəd həmin məsələdir; yəni xalqı paklamaq və təmizləmək. Sanki bir həkim öz xəstəsinə təkcə bunu demir ki, bu işi gör və o işi görmə, hətta onu xüsusi yerdə saxlayır, ona lazım olanı verir, yedizdirir, zərərli olandan saxlayır. Əziz Peyğəmbər (s) peyğəmbərliyinin iyirmi üç ilində bu üsulu izlədi; xüsusən Mədinədə yaşadığı İslam hakimiyyəti dövründə və İslam hökümətinin təşkil olunduğu on ildə.[1]

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1989.

## Sevgi, əməkdaşlıq və qardaşlıq mühiti

Əziz Peyğəmbərdən (s) nəql edilən bir rəvayətə əsasən belə buyurmuşdur: "Sizin heç biriniz mənə səhabələrimin heç biri barədə söz çatdırmasın. Mən sizin aranıza sağlam qəlblə çıxmaq istəyirəm".[1] Peyğəmbərin (s) yanına gəlib bir-biri haqqında pis sözlər deyirdilər, bəzən doğru, bəzən də doğru olmayan sözlər danışırdılar. Əziz Peyğəmbər (s) xalqa buyurdu ki, səhabələrim barədə heç kəs mənə bir söz deməsin. Buyurdu ki, daim mənim yanıma gəlib bir-birinizdən pis sözlər danışmayın, mən istəyirəm xalqın arasına çıxdıqda və öz sahəbələrimin yanına getdikdə "sağlam qəlbli" olum. Yəni təmiz, pak və heç bir bədbinlik olmadan müsəlmanların arasına gedim.

Əziz Peyğəmbərin (s) işlərindən biri cəmiyyətdə mehriban, sevgi və məhəbbət dolu bir mühit yaratmaq idi. Yəni bütün insanlar bir-birinə qarşı sevgi göstərsinlər, bir-birinə xoş niyyətlə və nikbinliklə baxsınlar. Bu gün də bizim vəzifəmiz budur. Yəni İslam cəmiyyətində müsəlmanlar bir-birlərinə qarşı laqeydlik halından çıxmalıdırlar. Müsəlmanların bir-birləri ilə işlərinin olmaması, hərəsinin özü üçün ayrı bir dünya yaradıb digər müsəlmanlarla maraqlanmaması İslamda bəyənilməmişdir. Əziz Peyğəmbərin (s) həyatının fəsillərindən biri bu idi ki, bu laqeydlik vəziyyətini sevgi, əməkdaşlıq və qardaşlıq vəziyyətinə, bir-biri ilə əməkdaşlıq edən bir toplum yaratmağa çevirsin. Bu elə bir şeydir ki, bu gün də öz quruluşumuzda ona ehtiyacımız var.[2]

---

[1] "Bihar əl-ənvar", c. 16, səh: 231.

[2] Tehranın cümə namazı xütbələrindən: 1989.

## Bizim kimi sürüdən ayrılmış dəvə

Nəql etmişlər ki, sivilizasiyadan, mədəniyyətdən, həyatın adi rəftar və əxlaq qaydalarından bir şey anlamayan bir səhra ərəbi özünün bədəvi kobudluğu ilə Mədinəyə Peyğəmbərin (s) yanına gəldi. O həzrət ya məsciddə, ya da yolda səhabələrinin arasında idi. O, Peyğəmbərdən (s) bir şey istədi, Peyğəmbər (s) də ona kömək etdi, misal üçün pul, yemək və paltar verdi. Bunu ona bağışlayanda dedi ki, indi yaxşı oldu? Mən sənə yaxşılıq etdimmi? Razısanmı? O kişi özünün bədəvi kobudluğuna, belə şəxslərdə olan açıqlıq və nəzakətsizliklə və yəqin ki, bunların onun üçün az olduğuna görə dedi ki, xeyr, heç bir iş görmədin, əsla yaxşılıq etmədin və ümumiyyətlə bu bir şey deyildi.

Təbii ki, Peyğəmbərə (s) qarşı belə kobud rəftar səhabələrə görə çox xoşagəlməz bir şey idi; hamısı əsəbiləşdi. Peyğəmbərin (s) ətrafında olan bir neçə nəfər qəzəblə bu ərəbə bir söz demək və reaksiya vermək istədilər, lakin Peyğəmbər (s) buyurdu ki, xeyr, onunla işiniz olmasın, mən bu məsələni həll edəcəyəm. Oradan getdi və bu səhra ərəbini də özü ilə evə apardı. Bəlli olur ki, Peyğəmbərin (s) buna vermək üçün orada bir şeyi yox idi, yoxsa daha artığını verərdi. Onu evə apardı və ona əlavə şeylər, misal üçün yemək, yaxud paltar, yaxud pul verdi. Sonra dedi ki, indi razı qaldınmı? Dedi: "Bəli". Kişi Peyğəmbərin (s) yaxşılığı və səbri qarşısında xəcalət çəkdi və razılığını bildirdi.

Peyğəmbər (s) ona buyurdu ki, sən bir qədər öncə mənim səhabələrimin qarşısında onların bədbinliyinə səbəb olan sözlər dedin, indi gedib mənə dediyin və razılıq bildirdiyin sözləri onların qarşısında demək istəyirsənmi? Dedi ki, bəli, hazıram. Sonra Peyğəmbər (s) həmin gecə, yaxud ertəsi gün bu ərəbi götürüb səhabələrinin yanına gətirdi və dedi: "Bu bədəvi ərəb qardaşımız bizdən razı olduğunu düşünür; əgər razısansa, de". O da Peyğəmbəri (s) tərifləməyə başladı və dedi ki, bəli, mən sevinirəm və

razıyam; misal üçün, əziz Peyğəmbərə (s) çox təşəkkür edirəm, o mənə çox sevgi göstərdi. Bu sözləri dedi və getdi.

O gedəndən sonra əziz Peyğəmbər (s) üzünü səhabələrə tutub buyurdu ki, bu səhra ərəbi bir çobanın otardığı sürüdən ayrılmış və səhraya üz qoyan bir dəvəyə bənzəyir. Mənim dostlarım olan sizlər bu dəvəni tutub mənə qaytarmaq üçün ona hücum çəkirsiniz, hər tərəfdən onun ardınca qaçırsınız. Sizin bu hərəkətiniz onu daha hürküdür, qorxusunu çoxaldır və onu tutmaq daha da çətinləşir. Mən sizin onu bizim aramızdan daha artıq hürkütmənizə imkan vermədim, məhəbbət və nəvazişlə onun yanına getdim, sürüyə və öz aramıza qaytardım. Bu, Peyğəmbərin (s) üsuludur.[1]

---

[1] Yenə orada.

## Qüreyşin əfv edilməsi

Əziz Peyğəmbər (s) İslam cəmiyyətində və müsəlmanların arasında azca kin, ədavət və düşmənçiliyin olmasını da istəmir. O, xalq arasında sevgi və səmimilik yaratmağa çalışırdı. Hətta İslamın dairəsi genişləndikdə və əziz Peyğəmbər (s) Məkkəni tutduqda da o şəhərin əhalisini əfv etdi. Məkkə əhalisi Peyğəmbəri (s) öz şəhərlərindən qovan şəxslər idilər. Peyğəmbər (s) həmin Məkkə əhalisinə görə on üç il narahatlığa və əziyyət çəkmişdi, sonra da onlarla bir neçə müharibə aparmışdı. Nə qədər müsəlman öldürmüşdülər və qarşılığında müsəlmanlar da onlardan öldürmüşdülər. Əgər onların bu vəziyyətdə Allah Rəsulunun (s) qalib ordusuna ev sahibliyi etmələri qərarı alınsaydı, uzun illərə qədər bunların arasında sülhün yaranma imkanı mövcud olmayacaqdı. Buna görə Peyğəmbər (s) Məkkəyə daxil olan kimi ümumi sülh elan etdi. Buyurdu ki, mən sizin hamınızı azad və əfv etdim. O, Qüreyşi əfv etdi və məsələ bitdi.[1]

[1] Yenə orada.

## İnsanların yanına gedək

Mənəviyyata təmayül və mənəvi yüksəliş üçün şərait olduqca çoxdur. Biz Peyğəmbər (s) kimi insanların yanına getməliyik. Peyğəmbərin (s) barəsində buyurmuşlar ki, o, səyyar həkim olmuşdur.[1] Yəni Peyğəmbər (s) səyyar həkim kimi hərəkət edirdi. Həkimlər öz xəstəxanalarında otururlar və xalq onlara müraciət edir. Amma peyğəmbərlər oturub xalqın onlara müraciət etməsini gözləmirdilər, onlar xalqa müraciət edirdilər; dərman çantalarında da həm məlhəm qoymaq üçün, həm iynə vurmaq üçün, həm də yaraya dağ basmaq üçün alətlər olmuşdur.[2]

---

[1] "Nəhcül-bəlağə", xütbə: 107.

[2] Polis qüvvələrinin etiqadi-siyasi işlər üzrə məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.

## Müsəlmanlar qardaşdırlar!

Peyğəmbərin (s) bəlkə də Mədinəyə daxil olduğu ilk aylarda gördüyü işlərdən biri müsəlmanlar arasında qardaşlıq yaratmaq idi. O, müsəlmanları bir-birilə qardaş etdi. Bir-birimizlə qardaş olduğumuzu deməyimiz İslamda bir kompliment deyil. Yəni müsəlmanlar həqiqətən bir-birlərinə qarşı qardaşlıq haqqına malikdirlər, bir-birinə borcludurlar; (doğma) qardaşların bir-birinə qarşı öhdəlikli olduqları və qarşılıqlı hüquqlara əməl etməli olduqları kimi. Peyğəmbər (s) bunu həyata keçirdi.

O, müsəlmanlari iki-iki formada bir-birinə qardaş etdi. Bunların təbəqələrinə, ailələrinə, Mədinə və Qüreyş zadəganlarının zadəganlığına riayət etmədi; qara qulu böyük bir şəxslə, azad olunmuş qulu Bəni-Haşimin, yaxud Qüreyşin məşhur bir ağa övladı ilə qardaş etdi. Hər halda bu qardaşlığın müxtəlif cəhətləri vardı. Onun ən mühüm cəhətlərindən biri bu idi ki, müsəlmanlar bir-birinə qarşı qardaşlıq hissi keçirsinlər.[1]

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1989.

## Qədirbilənlik

Həbəşə padşahı Nəcaşi tərəfindən Mədinəyə əziz Peyğəmbərin (s) yanına bir heyət gəldi. Yəqin ki, bir söz gətirmişdilər. Bu, hökumətlər arasında normal haldır. Nəcaşi Həbəşənin padşahı idi. O zaman dünyanın müxtəlif yerlərində olan sultan və əmirlərin çoxusu kimi o da məsihi və qeyri-müsəlman idi. Həbəşədən gəlmiş heyət Peyğəmbərin (s) yanına gəldikdə gördülər ki, Peyğəmbərin (s) özü ayağa qalxıb bu heyətə qulluq etməyə başladı. Səhabələr dedilər ki, ey Allahın rəsulu, biz buradayıq, icazə verin biz qulluq edək. Buyurdu ki, xeyr, müsəlmanlar Həbəşəyə hicrət edəndə bunların padşahı müsəlmanlara çox hörmət etdi; mən bunun əvəzini çıxmaq istəyirəm. Bu, qədirbilənlikdir. Əziz Peyğəmbərin (s) həyatında belə işlər çox olub.

İslam hökuməti dövründə bir qadın Mədinəyə Peyğəmbəri (s) görməyə gəldi. Səhabələr gördülər ki, Peyğəmbər (s) bu qadına çox sevgi göstərir, onun və ailəsinin əhvalını soruşur, çox səmimiliklə və məhəbbətlə onunla rəftar edir. O qadın gedəndən sonra Peyğəmbər (s) səhabələrin təəccübünü aradan qaldırmaq üçün buyurdu ki, bu qadın Xədicənin vaxtında (Məkkədə qorxu və şiddət dövründə) bizim evimizə get-gəl edirdi. Yəqin ki, hamının Peyğəmbərin (ə) tərəfdarlarını muhasirəyə saldığı və Peyğəmbərin əziz həyat yoldaşı həzrət Xədicənin yanına heç kimin gəlmədiyi zaman bu xanım Xədicə ilə get-gəl edirmiş. Rəvayətdə də göstərilmir ki, bu qadın müsəlman olmuşdur, yoxsa yox. Güman ki, bu qadın hələ müsəlman da olmamışdı. Amma keçmişdə belə bir xüsusiyyətə malik olduğundan, belə səmimiyyət və məhəbbət göstərdiyindən, əziz Peyğəmbər (s) illər sonra ona belə minnətdarlıq bildirmişdir.[1]

---

[1] Yenə orada.

### "Gözümdən düşdü!"

Peyğəmbər (s) müxtəlif üsullarla xalqda iş və çalışmaq ruhiyyəsini canlandırırdı. Bəzən işsiz bir gənc gördükdə buyururdu ki, Allah bikar gənci sevmir,[1] Allah öz ömrünü tələf edən və işsizliklə keçirən gənci sevmir.

Rəvayətdə göstərilir ki, əziz Peyğəmbər (s) bir gənci görüb onun cüssəsindən, sağlamlığından və gəncliyindən xoşu gəldikdə ona iki sual verirdi. Soruşurdu ki, evlənmisənmi, işin-peşən varmı. Əgər həmin gənc "evlənməmişəm və işim yoxdur" - deyə cavab versəydi, Peyğəmbər (s) buyururdu ki, bu gənc gözümdən düşdü. O belə üsul və rəftarlarla xalqın diqqətini iş və çalışmağın əhəmiyyətinə yönəldirdi.[2]

---

[1] İbn Əbilhədid, Şərh Nəhcül-bəlağə, c. 17, səh. 146.

[2] Tehranın cümə namazı xütbələrindən: 1989.

## “Sizin hamınız ondan yaxşısınız”

Bir neçə nəfər əziz Peyğəmbərin (s) yanına gəlib bir şəxsi təriflədilər. Dedilər ki, ey Allahın rəsulu, biz bu kişi ilə səfərə çıxmışdıq. O çox yaxşı, pak və allahçı bir kişidir; həmişə ibadət edirdi, harada dayanırdıqsa, dayandığımız andan hərəkət etdiyimiz vaxta qədər namazla, zikrlə, Quranla və belə işlərlə məşğul olurdu. Bu tériflərdən sonra Peyğəmbər (s) təəccüblə onlardan soruşdu: "Bəs onun işlərini kim görürdü? Miniyindən düşəndən daim namazla və Quranla məşğul olan şəxsin yeməyini kim bişirirdi? Onun əşyalarını kim endirir və (gedəndə) miniyə yükləyirdi? Onun işlərini kim görürdü?" Onlar cavabda dedilər ki, ey Allahın rəsulu, biz tam rəğbətlə onun işlərini görürdük. Peyğəmbər (s) buyurdu: “Sizin hamınız ondan yaxşısınız”.[1] Onun öz işini görməyib sizin üzərinizə qoyması və özünün ibadətlə məşğul olması yaxşı insan olmasına bais olmur. Yaxşı insan sizsiniz ki, işləyirsiniz, çalışırsınız və hətta başqasının işini də görürsünüz.[2]

---

[1] "Bihar əl-ənvar", c. 73, səh. 274.

[2] Tehranın cümə namazı xütbələrindən: 1989.

## Bir an tərəddüd etmədi

Əziz Peyğəmbər (s) öz dövrünün zülmət dünyası qarşısında təşvişə düşmədi. İstər Məkkədə yalqız olduğu, yaxud kiçik bir qrup olan müsəlmanların onu əhatə etdiyi, qarşısında isə təkəbbürlü ərəb başçılarının, Qüreyş dilavərlərinin və hegemonların kobud rəftarla və qüdrətli əllə durduğu gün onlardan, yaxud elmdən heç bir bəhrəsi olmayan avam insanlardan qorxmadı, özünün haqq sözünü dedi, təkrar və izah etdi, aydınlaşdırdı, təhqirlərə dözdü, çətinliklərə və əzablara dözdü və böyük bir qrupu müsəlman etməyi bacardı. İstərsə də İslam hökuməti təşkil edib özü bu hökumətin başçısı mövqeyində qüdrətə sahib olduğunda (heç nədən qorxmadı). O zaman da müxtəlif düşmən və müxaliflər Peyğəmbərin (s) qarşısında dayandılar; istər silahlı ərəblər, istər ozamankı dünyanın böyük padşahları. Peyğəmbər (s) onlara məktublar yazırdı, mübahisələt edirdi, sözlər deyirdi, qoşunlar yeridirdi, çətinliklər çəkirdi, iqtisadi mühasirəyə düşürdü, Mədinə xalqı onların ucbatından bəzən iki-üç gün yeməyə çörək tapmırdı. O zaman hər tərəfdən çoxlu təhdidlər Peyğəmbəri (s) əhatə etmişdi. İnsanların bəzisi nigaran olur, bəzisi zəiflik göstərir, bəzisi deyinir, bəzisi Peyğəmbəri (s) mülayimliyə və barışığa həvəsləndirirdi. Amma Peyğəmbər (s) bu dəvət və cihad səhnəsində bir an da zəiflik göstərmədi, İslam cəmiyyətini qüdrətlə irəliyə aparıb izzət və iqtidarın zirvəsinə çatdırdı. Həmin quruluş və cəmiyyət Peyğəmbərin (s) müharibə və dəvət sahələrində müqaviməti sayəsində sonrakı illərdə dünyanın birinci qüvvəsinə çevrilə bildi.[1]

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1991.

## Hər bir halda xalqla və xalqdan

Heç zaman xalqla olmaq, xalqa sevgi göstərmək və xalqın arasında ədaləti bərqərar etmək xislətini unutmadı. Xalqın özü kimi yaşadı, onlarla oturub-durdu. Qullarla və cəmiyyətin aşağı təbəqləri ilə dostluq edirdi, onlarla yemək yeyirdi, bir yerdə otururdu, onlara məhəbbət göstərirdi. Hakimiyyət onu dəyişdirmədi. Milli sərvət onu dəyişdirmədi. Çətin dövrdə və çətinliyin aradan qalxdığı dörvdə rəftarı fərqlənmədi; hər bir halda xalqla və xalqdan idi, xalqa şəfqət göstərirdi və xalq üçün ədalət istəyirdi.

Xəndək döyüşündə Mədinə müsəlmanları təxminən hər tərəfdən mühasirə olunmuşdular. Mədinəyə yemək gəlmirdi, xalqın ərzağı bitmişdi. Belə ki, bəzən iki-üç gün heç kim yeməyə bir şey tapmırdı. Həmin halda əziz Peyğəmbərin (s) özü düşmən qarşısında Xəndək qazmaqda xalqla birgə çalışırdı və xalq kimi aclıq çəkirdi. Rəvayətdə göstərilir ki, Fatimeyi-Zəhra (ə) bir qədər un tapıb azyaşlı uşaqları olan Həsən və Hüseyn (ə) üçün çörək bişirmişdi. Atasını ac qoymağa ürəyi gəlmədi, uşaqlar üçün bişirdiyi çörəkdən bir parçasını atasına apardı. Peyğəmbər (s) buyurdu ki, qızım, haradan gətirmisən. Dedi ki, uşaqlarınkıdı. Peyğəmbər (s) ağızına bir tikə qoyub yedi. Rəvayətə görə Peyğəmbər (s) buyurdu ki, üç gündür heç nə yemirəm. Xalqın özü kimi və xalqın yanında idi, onlarla mehriban davranırdı; istər bu halda, istər çətinliklərin ortadan götürüldüyü, Məkkənin fəth, düşmənlərin məğlub edildiyi və hamının öz yerində oturduğu zaman.[1]

---

[1] Yenə orada.

## İzzət və iqtidarın zirvəsində

Taif şəhərinin fəthindən sonra Peyğəmbərin (s) əlinə çoxlu qənimət düşdü. O, onları müsəlmanların arasında böldü. Bəzi müsəlmanların imanları möhkəm idi; onlar kənarda idilər. Məkkə və Taifin ətrafındakı qəbilələrdən və yeni müsəlmanlardan olan bir qrup Peyğəmbərin (s) üstünə cumub qənimət istədilər, Peyğəmbərə (s) əziyyət verdilər, onu əhatəyə aldılar. Peyğəmbər (s) verirdi, alırdılar, amma yenə istəyirdilər. İş elə bir həddə çatdı ki, Peyğəmbərin (s) çiynindəki əba da yeni müsəlman olmuş bu səliqəsiz və kobud ərəblərin əlinə düşdü. İzzət və iqtidarın zirvəsi olan bu yerdə də Peyğəmbər (s) xalqla eyni mehribanlıqla, eyni bağışla və eyni gülərüzlülüklə rəftar etdi. Əxlaqlı və şəfqətli şəkildə səsini ucaldıb dedi ki, ey insanlar, əbamı mənə qaytarın.[1] Peyğəmbərin (s) xalqla davranış tərzi belə idi.[2]

[1] "Bihar əl-ənvar", c. 16, səh: 226.
[2] Tehranın cümə namazı xütbələrindən: 1991.

## Mülayimliklə yanaşı olan idarəçilik və qayda-qanun

Peyğəmbər (s) qullarla oturub-dururdu, onlarla yemək yeyirdi. Bir gün yer üzərində oturub bir dəstə yoxsul adamla yemək yeyirdi. Səhra ərəblərindən olan və oradan keçən bir qadın təəccüblə soruşdu: "Ey Allahın rəsulu! Sən qullar kimi yemək yeyirsən?". Peyğəmbər (s) təbəssüm edib buyurdu: "Vay olsun sənə! Hansı qul məndən daha artıq quldur?!".[1]

Sadə paltar geyinərdi, qarşısında hansı yemək olsaydı və nə hazırlansaydı, yeyərdi, xüsusi yemək istəməzdi. Xoşuna gəlmədiyi üçün heç bir yeməyi qaytarmazdı. Bütün bəşəriyyət tarixində bu xarakterlər bənzərsizdir. Yaxşı rəftarla yanaşı, o, zahiri və mənəvi təmizliyin və paklığın zirvəsində idi. Abdullah ibn Ömər deyir ki, Peyğəmbərdən (s) daha çox bağışlayan, daha çox kömək edən, daha çox şücaətli və daha işıqlı bir kəs görmədim.[2]

Bu, Peyğəmbərin (s) xalqla rəftarı idi; insani rəftar, yaxşı rəftar, xalqın özü kimi təkəbbürsüz davranış. Peyğəmbər (s) ilahi və təbii heybətə malik olsa və insanlar onun yanında özlərini itirsələr də, o, xalqla mehriban davranırdı. Bir dəstə arasında oturduqda bilinmirdi ki, o, Peyğəmbər (s) və bu cəmiyyətin komandanı və böyüyüdür. Onun ictimai və hərbi idarəçiliyi yüksək səviyyədə idi. Bütün işlərə baş çəkirdi. Düzdür, cəmiyyət kiçik cəmiyyət idi, Mədinə və onun ətrafı idi; sonra da Məkkə və bir-iki başqa şəhər. Amma xalqın işinə diqqət yetirirdi, nizam-intizama və qayda-qanuna əməl edirdi. O, bədəvi cəmiyyətdə xalqın arasında idarəçiliyi, qayda-qanunu, həvəsləndirmə və tənbehi yaydı.[3]

---

[1] "Bihar əl-ənvar", c. 16, səh: 225.
[2] Yenə orada, səh: 231.
[3] Tehranın cümə namazı xütbələrindən: 1991.

## Gecə yarısı ağlayırdı

Peyğəmbər (s) elə məqam və əzəmətlə yanaşı öz ibadətini unutmurdu, gecə yarısı ağlayırdı, dua edir və bağışlanmaq istəyirdi. Ümm Sələmə bir gecə gördü ki, Peyğəmbər (s) yoxdur. Gedib gördü ki, dua edir, göz yaşı tökür, bağışlanmaq istəyir və belə deyir: "Ey Allahım, məni bir göz qırpımı qədər də öz nəfsimə tapşırma!"[1] Ümm Sələməni ağlamaq tutdu. Peyğəmbər (s) onun ağladığını görüb dedi ki, burada nə edirsən? Dedi: "Ey Allahın Rəsulu! Allah-Taala səni bu qədər izzətli etmiş və günahlarını bağışlamışdır - "Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq"[2] - nə üçün ağlayır və deyirsən ki, İlahi, bizi özümüzə tapşırma?" Peyğəmbər (s) buyurdu: "Əgər Allahdan qafil olsam, məni nə saxlaya bilər?!"

Bu bizim üçün dərsdir: izzət günündə, zillət günündə, çətinlik günündə, rahatlıq günündə, düşmənin insanı mühasirəyə aldığı gündə, düşmənin bütün əzəmətlə özünü insanın gözünə soxduğu gündə - bütün hallarda Allahı yad etmək, Allahı unutmamaq, Allaha arxalanmaq və Allahdan istəmək! Bu, Peyğəmbərin (s) bizə böyük dərsidir.[3]

Əziz Peyğəmbər (s) döyüş meydanında, o çəkişmə və qarşıdurmada diz çöküb əlini qaldırdı, dua etməyə və Allah-Taala ilə söhbətə başladı. Dedi ki, İlahi, əgər bunlar öldürülsələr, sən daha yer üzündə ibadət olunmayacaqsan. Peyğəmbər (s) orada da dua və yalvarışı unutmadı.[4]

---

[1] "Bihar əl-ənvar", c. 14, səh: 184.
[2] "Fəth"/2.
[3] Tehranın cümə namazı xütbələrindən: 1991.
[4] Əfqanıstan prezidenti ilə görüşdə çıxışından: 1992.

## Qəlblərin hakimi

Peyğəmbərlərin hökuməti xalq hökuməti idi, xalq üçün idi və onların maraqlarının xidmətində dururdu. İnsanlar peyğəməbərlərə eşq bəsləyirdilər. Bizim Peyğəmbərimiz (s) hökumət qurduqda da xalq ona eşq bəslədi. Məkkənin fəthindən bir gecə öncə Əbu Süfyan Peyğəmbərin (s) əmisi Abbasın vasitəsi ilə yavaşca və gizli şəkildə müsəlmanların düşərgəsində gəzdiyində və səhər çağı insanların Peyğəmbərin (s) dəstəmaz suyunu bir-birindən tez götürməyə çalışıb başlarına və üzlərinə vurduqlarını gördükdə Abbasa dedi ki, təəccüblüdür, mən Kəsra və Qeysəri - İran padşahını və Roma imperatorunu görmüşəm, amma onların heç birində sənin qardaşın oğlunun əzəmətini müşahidə etməmişəm. Onlar güclə və silahla xalqa hökumət edirdilər, amma bu kişi xalqın qəlbinə hakimdir, xalqın duyğularına malikdir, xalqın imanına malikdir və xalqın eşqi ona yönəlmişdir.[1]

[1] Məşhəd əhalisinin İmam Rzanın (ə) məqbərəsindəki toplantısındakı çıxışdan: 1992.

## Baxış lazımdır

Bizim istifadə etməyimiz və işə başlamağımız üçün bir vasitə lazımdır. Haraya doğru hərəkət edəcəyimizi bilmək üçün bir baxış lazımdır: haradan, haraya, hansı tərəfdən, hansı yolla və hansı məqsədlə? Bunların hər ikisi insanların həyatı üçün lazımdır. O dünyadır, bu axirətdir. Əgər bunların hər ikisi bir yerə toplansalar, dünya və axirətin səadəti hasil olar. Yəni insanın həm dünyası, həm də axirəti olar. Nəticədə xoşbəxt bir insan və peyğəmbərlərin istədiyi səadətli bir həyat alınar. Buna görə görürsünüz ki, əziz Peyğəmbər (s) din gətirdi, istiqaməti göstərdi, mənəviyyata arxalandı, lakin davamlı olaraq insanlara maddi vasitələr də verdi. Özü bəzi məsələləri, elmi, yəni həyat elmini, həyatın idarəsinə aid elmi birbaşa xalqa öyrətdi. Bəzən də iş mürəkkəb olurdu və ixtisasa ehtiyac yaranırdı. Onlara əmr edirdi ki, gedib elm öyrənsinlər, gedib məlumat toplasınlar, gedib əşyaya baxsınlar.[1]

---

[1] Hövzə və universitetin birliyi günündə tələbələrlə görüşdə çıxışından: 1993.

### "Hamısı qaldı".

Bir keçini Peyğəmbərin (s) yanına gətirdilər. Başını kəsdi və buyurdu ki, kim ət istəyirsə, gəlsin. Mədinənin yoxsulları Peyğəmbərin (s) evinə sarı yollandılar. Peyğəmbər (s) hər birinə bir tikə verdi. Hamı gedəndən sonra onun yalnız bir qolu qaldı. Peyğəmbərin (s) xanımlarının biri dedi ki, ey Allahın rəsulu, bu böyüklükdə bir keçi getdi, təkcə qolu qaldı? Peyğəmbər (s) buyurdu ki, hamısı qaldı, təkcə bu qolu gedəcək. Yəni yeyəcəyik gedəcək və bitəcək, amma verdiklərimiz qalacaq.[1]

[1] Keşikçilər Korpusunun komandirləri ilə görüşdə çıxışından: 1994.

## Şəxsi əxlaq

Xülasə olaraq Peyğəmbərin (s) əxlaqı şəxsi əxlaqa və hökumət əxlaqına bölünür; bir insan kimi və bir hakim kimi. Əlbəttə, bunlar o həzrətin vücudunda olanların bir hissəsidir. O həzrət əmanətdar, doğru danışan, dözümlü və səbirli idi, alicənab idi, bütün şəraitlərdə məzlumları müdafiə edirdi, işdə düz idi. Onun xalqla rəftarı sədaqətə, səmimiyyətə və düzgünlüyə əsaslanırdı. Gözəl danışırdı, acıdil və insan zəhərləyən deyildi. İffətli idi; İslamdan öncəki Ərəbistanın əxlaqi cəhətdən fəsad dolu mühitində keçən gənclik dövründə o həzrət iffət və həyası ilə məşhur olmuşdu. Onun iffətini hamı qəbul edirdi; bulaşmamışdı. Zahiri təmizliyə diqqət yetirirdi; təmiz paltar, təmiz üz, baş və təmiz rəftar. Şücaətli idi; düşmənin heç bir böyük cəbhəsi onu qorxutmurdu. Açıq danışan idi, öz sözünü açıq və düzgün şəkildə deyirdi. Məişətdə onun örnəyi zahidlik və təqva idi. Bağışlayan idi; həm mal bağışlayan, həm intiqam bağışlayan. Yəni intiqam almırdı, əfv edirdi və göz yumurdu. Çox ədəbli idi. Heç zaman kiminsə yanında ayağını uzatmadı. Heç zaman kiməsə hörmətsizlik etmədi. Çox həyalı idi. Kimsə onu lazım bildiyi bir işindən ötrü məzəmmət etsəydi - tarixdə bunun nümunələri mövcuddur - xəcalət və həyadan başını aşağı salardı. Çox mehriban, bağışlayan, təvazökar və ibadətçi idi. O həzrətin bütün həyatında - yeniyetməlik dövründən altmış üç yaşında vəfatına qədər bu xüsusiyyətləri onun vücudunda görmək olar.[1]

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.

## Məhəmməd Əmin

Onun əmanətdarlığı elə idi ki, cahiliyyət dövründə onu Əmin (əmanətdar) adlandırmışdılar. İnsanlar çox mühüm saydıqları əmanətləri ona tapşırırdılar və bu əmanətləri onlara sağlam qaytaracağına arxayın idilər. Hətta İslamın dəvəti başlandıqdan, Qüreyşlə onun arasında düşmənçilik və ədavət alovlandıqdan sonra da həmin düşmənlər bir yerdə əmanət qoymaq istədikdə Peyğəmbərin (s) yanına gəlib ona verirdilər. Siz eşitmisiniz ki, əziz Peyğəmbər (s) Mədinəyə hicrət edəndə Əmirəlmöminini (ə) Məkkədə qoydu ki, xalqın əmanətlərini qaytarsın. Bəlli olur ki, onda da həzrətin yanında bəzi əmanətlər olmuşdur; özü də müsəlmanların əmanəti yox, kafirlərin və onunla düşmənçilik edən şəxslərin əmanəti.[1]

---

[1] Yenə orada.

## Bizim dırnaqlarımızı tut!

Onun səbri o qədər idi ki, digərlərinin eşitməklə hövsələdən çıxdığı işlər o həzrətdə hövsələsizlik yaratmırdı. Bəzən Məkkədə o həzrətin düşmənləri ona qarşı elə rəftar edirdilər ki, cənab Əbu Talib bir nümunəsini eşidəndə qəzəblənib xəncərini çəkdi, öz xidmətçisi ilə oraya gedib Peyğəmbərə (s) qarşı edilən hörmətsizliyi bir-bir onlara qarşı etdi və dedi ki, hansınız etiraz etsəniz, boynunuzu vuraram. Amma Peyğəmbər (s) həmin işə səbirlə dözmüşdü. Başqa bir nümunə də Əbu Cəhllə söhbətdir. Əbu Cəhl Peyğəmbəri (s) ağır təhqir etdi. Amma o həzrət sakit durdu və səbir etdi. Bir nəfər gedib Əbu Cəhlin, qardaşı oğlu ilə belə rəftarını Həmzəyə xəbər verdi. Həmzə dözməyib kamanla Əbu Cəhli vurdu və başını qana boyadı. Sonra da bu hadisənin təsiri altında gəlib müsəlman oldu. İslamdan sonra bəzən müsəlmanlar hansısa bir hadisədə unutqanlıq, yaxud cahillik üzündən Peyğəmbərə (s) təhqiramiz bir cümlə deyirdilər. Hətta bir dəfə Peyğəmbərin (s) həyat yoldaşlarından və möminlərin analarından biri olan cənab Zeynəb bint Cəhş Peyğəmbərə (s) dedi ki, sən peyğəmbərsən, amma ədalətli deyilsən. Peyğəmbər (s) gülümsədi və sükut etdi. Onun qadın gözləntisi vardı və Peyğəmbər (s) onu təmin etməmişdi. Bəzi adamlar məscidə gəlib öz ayaqlarını uzadır və Peyğəmbərə (s) deyirdilər ki, bizim dırnaqlarımızı tut; çünki şəriətdə dırnaq tutmağın hökmü gəlmişdi. Peyğəmbər (s) də çox səbirlə bu cəsarət və ədəbsizlik qarşısında dözürdü.[1]

---

[1] Yenə orada.

## Alicənablıq

Onun alicənablığı elə idi ki, özünün şəxsi düşmənlərini əfv edirdi. Əgər bir yerdə bir məzlum görsəydi, ona kömək etmədən durmazdı. Cahiliyyətdə "Helf əl-Füzul" adlı bir müqavilə vardı. Peyğəmbər (s) ona qoşulmuşdu. Bir gün bir qərib adam Məkkəyə daxil olub malını satdı. Onun müştərisi As ibn Vail idi. Məkkə zadəganlarından olan bu güclü və quldur adam malı aldı, amma pulunu vermədi. O qərib adam kimə müraciət etdisə, kömək ala bilmədi. Odur ki, Əbu Qübeys dağına çıxıb ucadan qışqırdı: "Ey Fəhr övladları! Mənə zülm olunmuşdur!" Peyğəmbər (s) və əmisi Zübeyr ibn Əbdülmüttəlib o fəryadı eşitdilər. Buna görə bir yerə toplaşıb onun hüququnu müdafiə etmək qərarına gəldilər. As ibn Vailin yanına gedib dedilər ki, pulunu ver. O da qorxub pulunu verməyə məcbur oldu. Bu müqavilə bunların arasında qaldı və qərara gəldilər ki, məkkəlilər bu şəhərə daxil olan hansı bir yad adama zülm etsələr - çox zaman yad adamlara və qeyri-məkkəlilərə zülm edirdilər - onu müdafiə etsinlər. İslamdan sonra illər ötmüşdü, Peyğəmbər (s) buyururdu ki, mən hələ də özümü o müqaviləyə sadiq bilirəm. Dəfələrlə özünün məğlub düşmənlərinə qarşı elə rəftar etdi ki, onlar üçün başadüşülən deyildi. Hicrətin səkkizinci ilində Peyğəmbər (s) bəlli əzəmət və möhtəşəmliklə Məkkəni fəth edəndə buyurdu ki, bu gün mərhəmət və bağış günüdür. Odur ki, intiqam almadı. Bu o həzrətin alicənablığı idi.[1]

---

[1] Yenə orada.

## Ən yaxşı şərik

İşdə düzgün idi. Cahiliyyət dövründə ticarət edirdi, Şama və Yəmənə gedirdi, ticarət karvanlarına qoşulurdu, şərikləri vardı. Onun cahiliyyət dövründəki şəriklərindən biri sonralar deyirdi ki, o ən yaxşı şərik idi; nə inadkarlıq edirdi, nə mücadilə edirdi, nə öz yükünü şərikinin çiyninə qoyurdu, nə müştəri ilə pis rəftar edirdi, nə ona baha satırdı, nə yalan danışırdı; işdə düzgün idi. Onun bu düzgünlüyü cənab Xədicəni ona məftun etdi. Çünki Xədicə də Məkkənin birinci xanımı, əsil-nəsəb və sərvət baxımından görkəmli şəxsiyyət idi.[1]

[1] Yenə orada.

## Hizbullahçı pinti olmalıdır?!

Bəzi adamlar elə bilirlər ki, zahiri bəzənmə hizbullahçılığın ziddinədir və hizbullahçı pinti olmalıdır. Halbuki belə deyil. Əziz Peyğəmbər (s) dünyanın bütün hizbullahçılarından daha hizbullahçı idi. Rəvayətdə göstərilir ki, Peyğəmbərin (s) köhnə və qaranlıq otağında bir təbii ayna və su küpü qoyulmuşdu. O həzrət nə zaman dostlarının və səhabələrinin yanına getmək istəsəydi, aynaya baxır, əmmaməsini düzəldir və saqqalını darayırdı. O, əmmaməsini düzəltmək yerinə poza da bilərdi. Peyğəmbər (s) nə üçün əmmaməsini səliqəyə salırdı? Nə üçün saqqalını səliqəyə salırdı? Nə üçün saç-saqqalı səliqəyə salmaq və daramaq haqqında bu qədər hədis vardır? Səbəb nədir?[1]

---

[1] Bəsic Müqavimət Qüvvəsinin məsul şəxsləri ilə görüşdə çıxışından:1994.

## Səliqəli və dəbdəbəsiz görkəm

Uşaqlıq dövründən təmizkar idi. Məkkənin və ərəb qəbilələrinin uşaqlarının əksinə olaraq təmizkar və səliqəli idi. Yeniyetməlik dövründə saçını darayırdı, gənclik dövründə saçını və saqqalını darayırdı, İslamdan sonra, gənclik dövrünü keçirdikdən sonra və 50-60 yaşlı bir kişi olduğu dövrdə də təmizliyə tam riayət edirdi. Mərcəyinə çatan əziz saçı təmiz olardı, gözəl saqqalı təmiz və ətirli olardı. Rəvayətdə gördüm ki, öz evində bir su küpü vardı. O zaman güzgü çox yayılmamışdı. O, müsəlmanların, yoldaşlarının və dostlarının yanına getmək istədikdə mütləq əmmaməsini və saqqalını səliqəyə salır, təmizləyir və sonra çıxırdı. Həmişə ətirlə özünü ətirləndirirdi. Zahid yaşayışına rəğmən, səfərlərdə özü ilə daraq və ətir götürürdü, gözlərinə çəkmək üçün sürmə götürürdü. O zaman kişilərin gözlərinə sürmə çəkmələri adət idi. Hər gün bir neçə dəfə dişlərini fırçalayırdı. Digərlərini də bu təmizliyə, dişlərini fırçalamağa, bu səliqəli görkəmə çağırırdı. Bəzi adamların səhvi budur ki, səliqəli görkəmin dəbdəbəçilik və israfla yanaşı olduğunu güman edirlər. Xeyr, yamaqlı və köhnə paltarla da səliqəli və təmiz olmaq olar. Peyğəmbərin (s) paltarı yamaqlı və köhnə idi, amma paltarı, başı və üzü təmiz idi. Bunlar davranışda, rəftarda, xarici görkəmdə və gigiyenada çox təsirlidir. Bunlar zahirən kiçik, əslində isə çox təsirlidir.[1]

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2000.

## Öz səhabələri ilə zarafat edirdi

Xalqla rəftarı mehriban idi. Xalqın arasında həmişə gülərüz idi, yalqız qaldıqda isə qəm-qüssə və kədər zahir olurdu. İnsanların qarşısında özünün qəm-qüssələrini aşkar etmirdi, gülərüzlü idi, hamıya salam verirdi. Əgər kimsə onu incitsəydi, üzündə inciklik görünürdü, amma şikayət etmirdi. Onun yanında kiməsə söyüş verilməsinə və kiminsə haqqında pis danışılmasına imkan vermirdi. Onun özü də heç kimi söymürdü və heç kimin haqqında pis danışmırdı. Uşaqlara məhəbbət göstərirdi. Qadınlarla mehriban davranırdı. Zəiflərlə olduqca gözəl rəftar edirdi. Öz səhabələri ilə zarafat edirdi, onlarla at yarışı keçirirdi. Döşənəcəyi bir həsir idi. Onun balışı xurma lifi ilə doldurulmuş bir dəridən idi. Onun yeməyi çox zaman arpa çörəyi və xurma olurdu. Yazmışlar ki, heç zaman üç gün bir-birinin ardınca, rəngarəng yeməklər bir yana, heç buğda çörəyi ilə də öz qarnını doyurmadı.[1]

---

[1] Yenə orada.

## Allahın şükür edən bəndəsi olmayımmı?

Yəhərsiz miniyə minirdi. Yəhərli və qiymətli atlara minib öyündükləri gün o həzrət çox yerdə uzunqulağa minir və təvazökarlıq edirdi. Öz əli ilə ayaqqabısına yamaq vururdu. Bu, uyğun məktəbin görkəmli şagirdi olan Əmirəlmömininin (ə) dəfələrlə gördüyü və barəsində deyilən hədislərdə çox eşitdiyiniz məsələdir. Halbuki halal yolla sərvət qazanmağı icazəli bilir və buyururdu ki, sərvət Allah təqvası üçün yaxşı köməkçidir.[1] Deyirdi ki, gedin halal yolla - haram yolla yox, saxtakarlıqla, yalanla və kələklə yox, halal yolla sərvət qazanın. Amma eyni zamanda əgər özünün əlinə hansısa bir yolla bir sərvət çatsaydı, yoxsullara xərcləyərdi. Onun ibadəti elə idi ki, mehrabda durmaqdan ayaqları şişirdi, gecələrin əsas hissəsini oyaq qalıb ibadət etməklə, Allaha yalvarmaqla, ağlamaqla, tövbə və dua ilə keçirirdi. Allah-Taala ilə raz-niyaz və münacat edirdi. Ramazan ayından əlavə şaban və rəcəb aylarında və eşitdiyim qədər ilin digər vaxtlarında da o isti havada günaşırı oruc tuturdu. Səhabələri ona deyirdilər ki, ey Allahın rəsulu, sən axı günah etməmisən, bu qədər dua, ibadət və tövbə nə üçündür? Buyururdu: "Allahın şükür edən bəndəsi olmayımmı?! Halbuki O mənə bu qədər nemət vermişdir". Onun müqaviməti bəşər tarixində bənzəri görünməyən bir müqavimət idi. O qədər möhkəm dayandı ki, əbədi olan bu möhkəm ilahi binanın təməlini qoydu. Məgər müqavimətsiz mümkün idi?! Onun müqaviməti ilə mümkün oldu. Onun müqaviməti ilə elə dostlar yetişdilər. Onun müqaviməti ilə heç bir zehnin güman etmədiyi yerdə - susuz və otsuz Ərəbistan səhralarının ortasında həmişəyaşar bəşəri mədəniyyət çadırı ucaldıldı: "Buna görə də sən dəvət et və sənə əmr edildiyi kimi (bu yolda) möhkəm (müqavimətli) ol!"[2] [3]

---

[1] "Vəsail əş-şiə", c. 12, səh: 16.
[2] "Şura"/15.
[3] Tehranın cümə namazı xütbələrindən: 2000.

## Ədalətli, zahid və ağıllı

Peyğəmbərin (s) Mədinəyə giriş tarixini oxuyan adam - o qəbilə müharibələri, o hücumlar, düşməni Məkkədən səhraların ortasına çəkmək, ardıcıl zərbələr və inadkar düşmənlərlə mübarizə - bu tarixdə heyrətləndirici, güclü, hikmətli və hərtərəfli idarəçilik müşahidə edir.

O, qayda-qanunun keçikçisi idi. istər özü tərəfindən, istər digərləri tərəfindən qanunun pozulmasına yol vermirdi. Özü də qanunlara tabe olurdu. Quran ayələri də bunu söyləyir. Xalqın əməl etməli olduğu qanunlara o həzrətin özü də dəqiqliklə əməl edirdi və qanunun pozulmasına imkan vermirdi. Bəni-Qüreyzə döyüşündə qarşı tərəfin kişilərini tutub xainləri qətlə yetirdilər, qalanlarını isə əsir götürdülər. Bəni-Qüreyzənin mallarını və sərvətlərini gətirdilər. Möminlər analarından bir neçəsi Peyğəmbərə (s) dedi ki, ey Allahın rəsulu, yəhudilərdən bu qədər qızıl və bu qədər sərvət çatıb, bir qədərini də bizə ver. Peyğəmbər (s) qadınlarını sevməsinə, onlara məhəbbət göstərməsinə və onlarla çox yaxşı rəftar etməsinə baxmayaraq, onların istəyinə əməl etmədi. Sonra çox israr etdiklərində onlardan uzaqlaşdı. Ondan belə gözləntiləri olduğuna görə öz qadınlarından bir ay uzaqlaşdı. Sonra Əhzab surəsinin şərafətli ayələri nazil oldu: "Ey Peyğəmbərin zövcələri! Siz (başqa) qadınların heç biri kimi deyilsiniz"; "Ey Peyğəmbər! zövcələrinə belə de: “Əgər siz dünya həyatını və onun bərbəzəyini istəyirsinizsə, gəlin sizə talaq haqqınızı verim və (sonra da) gözəl bir tərzdə boşayım! Yox, əgər Allahı, Onun Rəsulunu və axirət yurdunu istəyirsinizsə, (bilin ki) Allah içərinizdən yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır". Peyğəmbər (s) buyurdu ki, əgər mənimlə yaşamaq istəyirsinizsə, mənim yaşayışım zahid yaşayışıdır və qanundan yayınmaq mümkün deyil.[1]

---

[1] Yenə orada.

### Sirr saxlayan idi

Onun hökumət xarakterlərindən başqa birisi əhdə vəfalı olması idi. O heç zaman əhdini pozmadı. Qüreyş onunla əhdini pozdu, amma o pozmadı. Yəhudilər dəfələrlə əhdi pozdular, amma o pozmadı. O həmçinin sirr saxlayan idi. Məkkənin fəthi üçün hərəkət etdikdə Peyğəmbərin (s) haraya getmək istədiyini heç kəs anlamadı, bütün qoşunu səfərbər edib dedi ki, gedirik. Dedilər haraya? Dedi ki, sonra bəlli olacaq. Heç kəsin onun Məkkəyə sarı getməsini bilməsinə imkan vermədi. Elə etdi ki, Məkkənin yaxınlığına qədər Qüreyş Peyğəmbərin (s) Məkkəyə gəlməsindən xəbər tutmadı.[1]

---

[1] Yenə orada.

## Münafiq, bədxah və təsirsiz düşmən

Düşmənləri eyni bilmirdi. Bu, Peyğəmbərin (s) həyatının mühüm məqamlarındandır. Bəzi düşmənlərin düşmənçiliyi dərin idi, amma Peyğəmbər (s) bunların əsas təhlükəsi olmadığını gördükdə onlarla işi olmazdı və sərt davranmazdı. Bəziləri də təhlükəli idilər, amma Peyğəmbər (s) onlara nəzarət edirdi; misal üçün Abdullah ibn Übəyy. Bir nömrəli münafiq olan Abdullah ibn Übəyy Peyğəmbərin (s) əleyhinə gizli təxribat da aparırdı. Lakin Peyğəmbər (s) onu nəzarətə götürdüyündən onunla işi yox idi. Peyğəmbərin (s) ömrünün sonlarına qədər də yaşadı. Bunlar elə düşmənlər idilər ki, hökumət, İslam quruluşu və İslam cəmiyyəti onların tərəfindən ciddi təhdid olunmurdu. Amma Peyğəmbər (s) (real) təhlükəli düşmənlərə qarşı çox sərt idi. Həmin mehriban insan, həmin rəhmli adam, həmin əfv edən və bağışlayan adam bir neçə yüz nəfərdən ibarət olan Bəni-Qüreyzə xainlərini bir gündə qətlə yetirmək, Bəni-Nəzir və Bəni-Qəyn-Qa qəbilələrini qovmaq və Xeybəri fəth etmək əmrini verdi. Çünki bunlar təhlükəli düşmənlər idilər. Peyğəmbər (s) Məkkəyə gəlişinin əvvəlində onlara çox mehribanlıq göstərmişdi. Amma bunlar qarşılığında xəyanət etdilər, arxadan xəncər vurdular, təxribat apardılar və təhdid etdilər. Peyğəmbər (s) Abdullah ibn Übəyyə dözürdü, Mədinənin daxilində olan yəhudiyə dözürdü, ona pənah gətirmiş, yaxud zərərsiz qüreyşliyə dözürdü - gedib Məkkəni fəth edəndə, daha onlar tərəfindən təhlükə olmayanda, hətta Əbu Süfyana və digər bəzi böyüklərə nəvaziş də göstərdi - amma bu qəddar, təhlükəli və etimad ediləsi olmayan düşməni məhv etdi.[1]

[1] Yenə orada.

## Yeddi peyğəmbər xüsusiyyəti

Peyğəmbərin (s) yaratdığı quruluşun müxtəlif xüsusiyyətləri var. Onların arasında yeddi xüsusiyyət hamısından mühüm və qabarıqdır:

Birinci xüsusiyyət iman və mənəviyyatdır. Peyğəmbər (s) quruluşunu irəliyə aparan həqiqi mühərrik xalqın qəlbindən və düşüncəsindən qaynaqlanan və onların vücudunu düzgün istiqamətdə hərəkətə gətirən imandır. Deməli, birinci xüsusiyyət insanlara iman və mənəviyyat ruhunu üfürmək, gücləndirmək və düzgün etiqad və düşüncə verməkdir. Peyğəmbər (s) bu işə Məkkədən başladı və Mədinədə bayrağını iqtidarla ucaltdı.

İkinci xüsusiyyət ədalətdir. Əsas iş ədalət və heç bir şeyi nəzərə almadan hər bir haqqı sahibinə çatdırmaqdır.

Üçüncü xüsusiyyət elm və bilgidir. Peyğəmbər (s) quruluşunda hər şeyin təməli bilmək, tanımaq, ayıqlıq və oyanışdır. Heç kəsi kor-koranə şəkildə bir səmtə hərəkət etdirmirlər. Xalqı ayıqlıqla, məlumatla və seçim qüvvəsi ilə passiv yox, aktiv qüvvəyə çevirirlər.

Dördüncü xüsusiyyət səmimilik və qardaşlıqdır. Peyğəmbər (s) quruluşunda xurafatçı, şəxsi və mənfəətçi maraqlardan yaranan çəkişmələr pislənilmişdir və onlarla mübarizə aparılır. Mühit səmimilik, qardaşlıq və həmrəylik mühitidir.

Beşinci xüsusiyyət əxlaq və rəftar düzgünlüyüdür. İnsanları mənəvi cəhətdən paklayır, əxlaq fəsadlarından və qəbahətlərindən təmizləyir, əxlaqlı və mənən saf insan düzəldir: "Onları (mənəvi cəhətdən) paklayır və onlara kitabı və hikməti öyrədir". Mənəvi paklıq əsas təməllərdən biridir. Yəni Peyğəmbər (s) insanların hər biri üzərində tərbiyə və insan yetişdirmək baxımından işləyir.

Altıncı xüsusiyyət iqtidar və izzətdir. Peyğəmbər (s) cəmiyyəti və quruluşu başıqapazlı, asılı, başqasının ardınca düşən və ona-buna ehtiyac

əli uzadan deyil, izzətli, iqtidarlı və qərarlıdır. Öz məsləhətini bildikdə, onu təmin etmək üçün çalışır və işlərini yoluna qoyur.

Yeddinci xüsusiyyət iş, hərəkət və daimi inkişafdır. Peyğəmbər (s) quruluşunda dayanmaq yoxdur. Ardıcıl olaraq hərəkət, iş və inkişaf var. Nə zamansa demirlər ki, daha bitdi, indi oturub istirahət edək. Belə bir şey yoxdur. Əlbəttə, bu iş ləzzətli və sevinc bəxş edən işdir, üzücü iş deyil, insana həvəs, qüvvə və şövq verir.[1]

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2001.

## Bir anı hədər vermədi

Peyğəmbər (s) Mədinəyə daxil olduğu andan insan yetişdirmək işinə başladı. Bu uca binanın möhkəm sütunları olan layiqli idarəçilər, böyük, şücaətli, bağışlayan, imanlı, güclü və mərifətli insanlar tədricən Mədinəyə daxil oldular. Peyğəmbər (s) Mədinəyə daxil olan kimi işə başladı. O həzrətin həyatının möhtəşəm xüsusiyyətlərindən biri budur ki, bu on il ərzində bir anı də hədər vermədi. Peyğəmbərin (s) mənəviyyat, hidayət, təlim və tərbiyə nurunun bir an da dayanması görünmədi. Onun oyaqlığı, onun yuxusu, onun məscidi, onun evi, onun döyüş meydanı, küçə və bazara getməsi, onun ailə rəftarı, onun varlığı - harada olsaydı - dərs idi. Belə bir ömrün qəribə bərəkəti var! O, bütün tarixi öz düşüncəsi ilə fəth etdi, bütün tarixə təsir göstərdi. Mən dəfələrlə demişəm ki, əsrlər sonra bəşəriyyət üçün müqəddəsləşən bir çox məfhumlar, o cümlədən bərabərlik, qardaşlıq, ədalət və demokratiya məfhumları onun təlimlərindən təsirlənmişdir. Digər dinlərin təlimlərində belə şeylər yox idi, yaxud ən azı aşkar olmamışdı.[1]

[1] Yenə orada.

## Hansı qrupun tərəfdarıdır?

Peyğəmbərin (s) mindiyi dəvə Yəsrib şəhərinə daxil oldu. Xalq onu dövrəyə aldı. O zaman Mədinə şəhəri məhəllələrə bölünürdü. Hər məhəllənin də özü üçün evləri, küçələri, hasarı və böyükləri vardı və bir qəbiləyə məxsus idi; Övs və Xəzrəcə bağlı olan qəbilələrə. Peyğəmbərin (s) dəvəsi Yəsrib şəhərinə daxil olduqda hansı qəbilənin qalasının qarşısına çatırdısa, böyüklər bayıra çıxıb dəvənin cilovunu tuturdular, deyirdilər ki, ey Allahın rəsulu, buraya gəl, bizim evimiz, məişətimiz, sərvətimiz və imkanlarımız sənin olsun. Peyğəmbər (s) buyururdu ki, dəvənin yolunu açın, o, əmr əsasında hərəkət edir, qoyun getsin.

Dəvə beləcə məhəllə-məhəllə yol gedirdi. Nəhayət Peyğəmbərin (s) anasının mənsub olduğu Bəni-Nəccar məhəlləsinə çatdı. Onlar Peyğəmbərin (s) dayıları sayılırdılar. Buna görə qarşıya çıxıb dedilər ki, ey Allahın rəsulu, biz sənin qohumlarınıq, bizim vücudumuz sənin olsun, bizim evimizdə en. Buyurdu ki, kənara çəkilin, bu dəvə əmr əsasında hərəkət edir.

Yolu açdılar. Dəvə Mədinə şəhərinin ən yoxsul məhəlləsinə gəlib bir yerdə oturdu. Hamı baxdı ki, kimin olduğunu görsünlər. Gördülər ki, Əbu Əyyub Ənsarinin evidir; Mədinənin ən yoxsul adamı, yaxud ən yoxsullarından biri. Özü və kasıb ailəsi gəlib Peyğəmbərin (s) əşyalarını evə apardılar. Peyğəmbər (s) də qonaq kimi onların evinə daxil oldu. Əyan-əşrafa, nüfuzlu insanlara, qəbilə sahiblərinə və bu kimi şəxslərə rədd cavabı verdi. Yəni özünün ictimai mövqeyini müəyyən etdi. Bəlli oldu ki, bu şəxs pula, qəbilə heysiyyətinə, hansısa qəbilə rəisinin şərafətinə, qohum-əqrəbaya, üzlü və bu kimi adamlara bağlı deyil və olmayacaq. İlk saatdan və andan ictimai münasibətlərdə hansı qrupun və hansı cəmiyyətin tərəfdarı olduğunu və varlığının daha çox kimlər üçün faydalı olacağını müəyyən etdi. Peyğəmbərdən (s) və onun təlimlərindən hamı faydalanır,

amma daha məhrum olan təbii ki, daha artıq haqq götürür və məhrumluğunun əvəzi verilir.

Əbu Əyyub Ənsarinin evinin qarşısında istifadəsiz torpaq vardı. Buyurdu ki, bu torpaq kimindir? Dedilər ki, iki yetim uşağa məxsusdur. Öz kisəsindən pul verib o yeri aldı. Sonra buyurdu ki, bu yerdə məscid tikəcəyik; yəni bir siyasi, ibadi, ictimai və hökumət mərkəzi və xalqın toplantı yeri. Mərkəz üçün bir yer lazım idi. Odur ki, məscid tikməyə başladılar. Məscidin torpağını kimdənsə istəmədi, bağışlanmasını da istəmədi, öz pulu ilə aldı. O iki uşağın atası və müdafiəçisi yox idisə, Peyğəmbər (s) onların atası və müdafiəçisi kimi haqlarına kamil şəkildə riayət etdi. Məscidi tikməyə başlayanda Peyğəmbərin (s) özü əlinə bel götürüb məscidin bünövrəsini qazmağa başalayn ilk şəxslərdən, yaxud ilk şəxs oldu. Bir formal iş kimi yox, həqiqətən işə başladı və tər tökdü. Elə işlədi ki, kənarda oturan bəzi şəxslər dedilər biz oturaq və Peyğəmbər (s) bu şəkildə işləsin?! Qalxın biz də işləyək. Odur ki, gəlib qısa müddətdə məscidi tikdilər. Uca və iqtidarlı rəhbər olan Peyğəmbər (s) göstərdi ki, özü üçün heç bir xüsusi haqq tanımır, əgər bir iş görülməlidirsə, həmin işdə onun da rolu olmalıdır.[1]

---

[1] Yenə orada.

## Birinci tədbir: yəhudilərə nəzarət

Mədinədə üç mühüm yəhudi qəbiləsi yaşayırdı; yəni özlərinin təxminən Mədinəyə yapışmış xüsusi qalalarında: Bəni-Qeyn-Qa qəbiləsi, Bəni-Nəzir qəbiləsi və Bəni-Qüreyzə qəbiləsi. Əziz Peyğəmbərin (s) Mədinəyə daxil olduğu dövrdə bu yəhudilərin iki-üç xüsusiyyəti vardı. Biri bu idi ki, Mədinənin əsas sərvəti, ən yaxşı əkinçilik sahələri, ən çox qazanclı ticarətlər və ən faydalı sənaye - qızılçılıq və digər bu kimi sənətlər bunların əlində idi. Mədinə əhalisinin çoxu ehtiyaclı olduqda bunlara müraciət edib borc pul alır və sələm ödəyirdilər. Yəni maliyyə baxımından hamısı bunların əlində idi. İkincisi budur ki, Mədinə əhalisinə mədəni üstünlükləri vardı. Onlar kitab əhli, müxtəlif bilgilərlə və dini təlimlərlə tanış idilər. Odur ki, düşüncə baxımından hakim idilər. Əgər bugünkü dillə söhbət etmək istəsək, deməliyik ki, bunlar Mədinədə bir ziyalı təbəqə sayılırdılar. Buna görə oranın əhalisini axmaq sayır, təhqir və masqara edirdilər. Üçüncü xüsusiyyət bu idi ki, uzaq yerlərlə də əlaqələri vardı. Yəni məhdud Mədinə mühitində qalmamışdılar. Bunlar Mədinədə real qüvvə idilər. Buna görə də Peyğəmbər (s) bunlar barədə düşünməli idi. Əziz Peyğəmbər (s) ümumi bir müqavilə bağladı. Bu müqavilə hamı tərəfindən qəbul olundu. Müqavilə ictimai əlaqələr, ticarət, münaqişələr, diyə, Peyğəmbərin (s) müxaliflərlə, yəhudilərlə və qeyri-müsəlmanlarla münasibətləri barədə idi. Bunların hamısı yazıldı və qeyd olundu.[1]

---

[1] Yenə orada.

## İkinci tədbir: qardaşlıq yaratmaq

Dəbdəbə düşkünlüyü, xurafatçı təəssübkeşliklər, qəbilə qüruru və xalqın müxtəlif təbəqələrinin bir-birindən ayrılığı ozamankı təəssübkeş və cahil ərəb cəmiyyətlərinin ən böyük bəlası idi. Peyğəmbər (s) qardaşlıq yaratmaqla bunları öz ayaqları altında əzdi. Bir qəbilə başçısı ilə çox aşağı və orta səviyyəli bir adam arasında qardaşlıq yaratdı. Dedi ki, siz iki nəfər bir-birinizlə qardaşsınız. Onlar da könüldən bu qardaşlığı qəbul etdilər. Zadəganları və böyükləri müsəlman olmuş və azadlığa çıxmış qulların yanında qoydu. Bu işlə ictimai birliyin bütün maneələrini ortadan götürdü. Məscidə azançı seçmək istəyəndə səsi və görkəmi gözəl olanlar çox idilər. Çoxlu məşhur adamlar və görkəmli şəxsiyyətlər vardı. Amma bütün bunların arasında Bilal Həbəşini seçdi; nə gözəllik, nə səs, nə ailə və nə ata-ana şərəfi nəzərə alındı. Yalnız İslam, iman, Allah yolunda mücahidlik və bu yolda fədakarlıq göstərmək meyar götürüldü. Görün dəyərləri əməldə necə müəyyən etdi! Onun sözündən çox əməli, rəftarı və davranışı ürəklərə təsir etdi.[1]

---

[1] Yenə orada.

## Beş əsas düşmən

Peyğəmbər (s) baxıb görür ki, yeni doğulmuş İslam cəmiyyətini beş əsas düşmən təhdid edir:

**Birinci düşmən: Mədinənin ətrafındakı qəbilələr**

Bir düşmən kiçik və az əhəmiyyətlidir, amma eyni zamanda ona diqqətsiz yanaşmaq olmaz; bəzən böyük bir təhlükə yaratması mümkündür. O hansıdır? Mədinə ətrafında olan yarımvəhşi qəbilələr. Mədinədən on fərsəx, on beş fərsəx, iyirmi fərsəx uzaqda bütün həyatları müharibədən, qan tökməkdən, qarətçilikdən, bir-birinin canına düşməkdən və bir-birindən oğurlamaqdan ibarət olan yarımvəhşi qəbilələr mövcuddur. Əgər Peyğəmbər (s) Mədinədə sağlam, əmin-amanlı və təhlükəsiz bir ictimai quruluş yaratmaq istəyirsə, bunları nəzərə almalıdır. Peyğəmbər (s) bunlar haqqında düşündü. Onların hansısa birində hidayət əlaməti olsaydı, onlarla müqavilə bağlayırdı. Əvvəldə də demədi ki, mütləq gəlin müsəlman olun. Xeyr, kafir və müşrik idilər, amma bunlarla müqavilə bağladı ki, hücum etməsinlər. Peyğəmbər (s) çox israrla öz əhd-peymanına sadiq qalırdı. Etimad ediləsi olmayan quldurlara isə Peyğəmbər (s) əlac etdi və özü onlara sarı getdi. Eşitmisiniz ki, Peyğəmbər (s) əlli nəfəri bir qəbiləyə sarı yolladı, iyirmi nəfəri bir qəbiləyə sarı; bunlar həmin qəbilələrdir. Xislət və təbiətləri aramlıq, hidayət və yaxşılıq qəbul etməyən şəxslər qan tökmədən və zorakılıq etmədən yaşaya bilmirlər. Buna görə Peyğəmbər (s) onlara sarı getdi. Onları məğlub etdi və və öz yerlərində oturtdu.

**İkinci düşmən: Məkkə əhalisi**

İkinci düşmən bir mərkəz olan Məkkədir. Düzdür, Məkkədə tam mənada bir hökumət mövcud deyildi, amma bir qrup təkəbbürlü, güclü və nüfuzlu zadəgan birlikdə Məkkənin hakimi idilər. Bunların bir-biri ilə

ixtilafları vardı, lakin bu yeni doğulmuş uşaq (İslam) qarşısında əlbir olmuşdular. Peyğəmbər (s) bilirdi ki, əsas təhlükə onların tərəfindəndir. Bu, təcrübədə də göründü... Hüdeybiyyə hadisəsi çox mənalı hadisələrdən biridir. Peyğəmbər (s) ümrə ziyarəti məqsədi ilə Məkkəyə sarı hərəkət etdi. Onlar gördülər ki, Peyğəmbər (s) haram (hörmətli) ayda - bu ayda müharibə olmurdu və onlar da haram aya hörmət göstərirdilər - Məkkəyə sarı gəlməkdədir. Nə etsinlər? Yolu açsınlar və gəlsin? Bu uğurla nə edəcəklər və onun qarşısında necə dayanacaqlar? Yoxsa haram ayda gedib onunla vuruşsunlarmı? Necə vuruşsunlar?! Nəhayət qərara gəldilər ki, gedəcəyik və onu Məkkəyə gəlməyə qoymayacağıq. Əgər bəhanə tapsaq, hamısını qıracağıq. Peyğəmbər (s) çox yüksək tədbirlə elə etdi ki, onlar oturub Peyğəmbərlə (s) onun qayıtmasına, lakin növbəti ildə gəlib ümrə ziyarətini yerinə yetirməsinə dair müqavilə imzaladılar. Bununla bütün bölgədə Peyğəmbərin (s) təbliğatı üçün şərait yarandı. Adı sülhdür, amma Allah-Taala Quranda buyurur: "Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik". Biz sənin üçün aşkar zəfər yaratdıq. Əgər insan tarixin düzgün və mötəbər qaynaqlarına müraciət etsə, Hüdeybiyyə hadisəsinin nə qədər möhtəşəm olduğunu görər. Növbəti ildə Peyğəmbər (s) ümrə ziyarətinə getdi və onların iradəsinin əksinə olaraq, o həzrətin əzəməti günbəgün artdı. Sonrakı il, yəni kafirlərin müqaviləni pozduğu səkkizinci ildə Peyğəmbər (s) gedib Məkkəni fəth etdi. Bu, Peyğəmbərin (s) iqtidarından xəbər verən möhtəşəm zəfər idi. Buna əsasən, Peyğəmbər (s) bu düşmənlə də siyasətlə, qüdrətlə, səbir və hövsələ ilə, özünü itirmədən və bir addım da geri çəkilmədən rəftar etdi; günbəgün və anbaan irəlilədi.

**Üçüncü düşmən: Yəhudilər**

Üçüncü düşmən yəhudilər idi; yəni hələlik Peyğəmbərlə (s) birgə Mədinədə yaşamağa razı olan, lakin əziyyət verməkdən, maneə törətməkdən və təxribatdan əl çəkməyən etimadsız əcnəbilər. Əgər baxsanız, Bəqərə surəsinin və Quranın digər bəzi surələrinin mühüm hissəsi Peyğəmbərin (s) yəhudilərlə mədəni mübarizəsinə aiddir. Dedik ki,

bunlar mədəni idilər, məlumatları vardı, imanı zəif olan insanların beyinlərinə çox təsir göstərirdilər, təxribat aparırdılar, xalqı ümidsiz edir və bir-birinin canına salırdılar. Bunlar təşkilatlı düşmən idilər. Peyğəmbər (s) bacardığı qədər bunlarla keçindi. Lakin sonradan keçinməyə layiq olmadıqlarını gördükdə onları cəzalandırdı. Peyğəmbər (s) bunların üstünə həm də əbəs yerə və səbəbsiz getmədi. Bu üç qəbilənin hər biri bir iş törətdi və Peyğəmbər (s) onları həmin işə uyğun şəkildə cəzalandırdı. Əvvəlcə Bəni Qeyn-Qa Peyğəmbərə (s) xəyanət etdi. Peyğəmbər (s) onlara sarı getdi və buyurdu ki, buradan getməlisiniz. Bunları köçdürdü, o bölgədən çıxartdı və bütün şəraitləri müsəlmanlara qaldı. İkinci dəstə Bəni-Nəzir idi. Onlar da xəyanət etdilər - bunların xəyanət dastanı mühümdür - buna görə Peyğəmbər (s) buyurdu ki, əşyalarınızdan bir qədərini götürün və gedin. Onlar da məcbur oldular və getdilər. Üçüncü dəstə Bəni-Qüreyzə idi. Peyğəmbər (s) onlara qalmaq icazəsi verdi. Onları qovmadı. Onlarla müqavilə bağladı ki, Xəndək döyüşündə düşmənin məhəllələr tərəfindən Mədinəyə daxil olmasına imkan verməsinlər. Lakin bunlar namərdlik edib düşmənlə müqavilə bağladılar ki, onların yanında Peyğəmbərə (s) hücum etsinlər. Yəni nəinki Peyğəmbərlə (s) müqavilələrinə sadiq qalmadılar, hətta gedib düşmənlə müzakirə apardılar və onlarla birgə müştərək şəkildə məhəllələr tərəfindən Mədinəyə daxil olub Peyğəmbərə (s) arxadan xəncər vurmaq qərarına gəldilər. Peyğəmbər (s) Mədinənin bir hissəsində Xəndək qazmışdı. Bunların məhəllələri isə digər tərəfdə idi və onlar düşmənin həmin yerdən gəlməsinə mane olmalı idilər. Peyğəmbər (s) bunların təxribatı əsnasında məsələni anladı. Mədinənin mühasirəsi bir ay sürdü. Bunlar bu bir ayın ortasında bu xəyanəti etdilər. Peyğəmbər (s) bunların belə bir qərara gəldiklərindən xəbərdar oldu. O çox ağıllı bir tədbirlə elə bir iş gördü ki, bunlarla Qüreyşin arası dəydi. Bunun təfərrüatını tarixdə yazmışlar. Elə etdi ki, bunların və Qüreyşin bir-birinə etimadı sarsıldı. Peyğəmbərin (s) çox gözəl hərbi-siyasi hiylələrindən biri buradadır. Yəni bunları hələlik dayandırdı ki, zərbə vura bilməsinlər. Sonra Qüreyş və onun müttəfiqləri məğlub olub Xəndəkdən ayrılanda və Məkkəyə sarı

gedəndə Peyğəmbər (s) Mədinəyə qayıtdı. Qayıtdığı gün zöhr namazını qıldı və buyurdu ki, əsr namazını Bəni-Qüreyzə qalalarının önündə qılacağıq; yola düşün, oraya gedirik. Yəni hətta bir gecə də gözləmədi. Gedib onları mühasirəyə aldı. İyirmi beş gün bunların arasında müharibə və döyüş oldu. Sonra Peyğəmbər (s) bunların bütün döyüşçü kişilərini qətlə yetirdi. Çünki bunların xəyanəti daha böyük və düzələsi deyildi. Peyğəmbər (s) bunlarla belə rəftar etdi. Yəni yəhudilərin düşmənliyini - əsasən Bəni-Qüreyzə məsələsində, ondan öncə Bəni-Nəzir və sonra Xeybər yəhudiləri məsələsində belə siyasətlə, qüdrətlə, müntəzəmliklə və uca insani əxlaqla müsəlmanların üzərindən uzaqlaşdırdı. Bu hadisələrin heç birində Peyğəmbər (s) əhdini pozmadı. Hətta İslam düşmənləri də bunu qəbul edirlər ki, Peyğəmbər (s) bu məsələlərdə heç bir müqaviləni pozmadı. Müqaviləni pozan onlar idilər.

**Dördüncü düşmən: Münafiqlər**

Dördüncü düşmən münafiqlər idilər. Münafiqlər xalqın içində idilər. Onlar dildə iman gətirmiş, lakin əslində imanı olmayan rəzil, ədavətli, dar düşüncəli, düşmənlə əməkdaşlığa hazır olan, lakin təşkilatlanmamış insanlar idilər. Bunların yəhudilərlə fərqi bu idi. Peyğəmbər (s) zərbə vurmaq üçün hücum etməyə hazır olan və fürsət gözləyən təşkilatlı düşmənə qarşı, misal üçün, yəhudilərlə olduğu kimi rəftar edir və onlara aman vermir. Lakin təşkilatlanmayan, fərdi inadları, ədavətləri və xəbislikləri olan imansız düşmənə dözür. Abdullah ibn Übəyy Peyğəmbərin (s) ən qatı düşmənlərindən biri idi. Bu şəxs təxminən Peyğəmbərin (s) həyatının son ilinə qədər sağ idi. Peyğəmbər (s) ona qarşı pis rəftar etmədi. Onun münafiq olduğunu hamı bilsə də, Peyğəmbər (s) onunla keçinirdi, digər müsəlmanlar kimi rəftar edirdi, beytülmaldan payını verirdi, təhlükəsizliyini təmin edirdi, hörmətinə riayət edirdi. Lakin onlar bütün bu pislikləri və xəbislikləri edirdilər. Yenə də Bəqərə surəsində bir hissə bu münafiqlərə aiddir. Bu münafiqlərin bir qrupu təşkilatlanmış işlər gördükdə Peyğəmbər (s) onlara sarı getdi. Zirar məscidi hadisəsində

bunlar gedib bir mərkəz düzəltdilər, İslam quruluşundan xariclə - yəni Roma məntəqəsində olan Əbu Amir Rahib kimi bir şəxslə əlaqə qurdular, Romadan Peyğəmbərin (s) əleyhinə qoşun yeritmək üçün işlər gördülər. Burada Peyğəmbər (s) onlara sarı getdi, düzəltdikləri məscidi dağıtdı və yandırdı. Buyurdu ki, bu, məscid deyil, bura məscid əleyhinə, Allahın adı əleyhinə və xalq əleyhinə təxribat yeridir. Yaxud həmin münafiqlərin bir qrupu öz küfrlərini aşkar edib Mədinədən getdiyi və bir yerdə qoşun hazırladığında Peyğəmbər (s) bunlara qarşı mübarizə apardı. Buyurdu ki, əgər yaxınlaşsalar, gedib onlarla vuruşacağıq. Halbuki Mədinənin daxilində münafiqlər vardı, amma Peyğəmbərin (s) onlarla işi yox idi. Buna əsasən, üçüncü dəstəyə qarşı qətiyyətli təşkilati rəftarı, lakin dördüncü dəstəyə qarşı mülayim rəftarı vardı; çünki bunlar təşkilatlanmamışdılar, təhlükələri fərdi təhlükə idi. Peyğəmbər (s) öz rəftarı ilə çox zaman bunları utandırırdı da.

**Beşinci düşmən: Nəfs**

Beşinci düşmənə gəlincə isə, bu düşmən müsəlman və mömin şəxslərin hər birinin daxilində olan düşməndən ibarət idi. Ən təhlükəli düşmən də budur. Bu düşmən bizim daxilimizdədir: nəfsi təmayüllər, xudpəsəndliklər, yayınmaya təmayül, şəraitini insanın özünün hazırladığı azğınlığa təmayül. Peyğəmbər (s) bu düşmənə qarşı da güclü mübarizə apardı. Lakin bu düşmənlə mübarizə xəncər mübarizəsi deyil, tərbiyə, mənəvi paklandırma, təlim və xatırlatmadır. Odur ki, insanlar o qədər zəhmətlə müharibədən qayıtdıqda Peyğəmbər (s) buyurdu ki, siz kiçik cihaddan qayıtdınız, indi böyük cihadla məşğul olun. Qəribədir! Ey Allahın rəsulu! Böyük cihad nədir? Biz bu böyüklükdə və bu qədər zəhmətli cihadı yerinə yetirdik, məgər bundan da böyük cihad varmı? Buyurdu ki, bəli, öz nəfsinizlə cihad. Əgər Quran "Qəlblərində (ruhlarında) xəstəlik olanlar"[1] - deyə buyurursa, bunlar münafiqlər deyillər. Düzdür, münafiqlərin bir qismi də bunlardandırlar. Lakin qəlbində xəstəlik olan hər bir adam

[1] "Tövbə"/125.

münafiq deyil. Bəzən mömindir, lakin ruhunda xəstəlik var. Bu xəstəlik nə deməkdir? Yəni əxlaq və şəxsiyyət zəiflikləri. Nəfsə pərəstiş və müxtəlif xudpəsəndliklərə təmayül. Əgər bunun qarşısını almasan və özün onlarla mübarizə aparmasan, imanı səndən alacaq və səni daxildən yeyəcək. Səndən imanı aldıqda qəlbin imansız, zahirin isə imanlı olacaq. O zaman belə bir şəxsin adı münafiqdir. Əgər Allah eləməmiş, mənim və sizin qəlbimiz imansız, lakin zahirimiz imanlı olsa, etiqad və iman bağlılıqlarını əldən verdiksə, lakin bizim dilimiz əvvəlcə söylədiyi iman sözlərini söyləyirsə, bu, münafiqlik olur. Bu da təhlükəlidir. İslam cəmiyyəti üçün böyük təhlükə budur. Siz tarixdə harada İslam cəmiyyətinin yayındığını görürsünüzsə, buradan yayınmışdır. Bu daxili düşmənin qoşununun insana hücum etdiyi və insanın daxilini boşaltdığı yerdə yol yayınacaq. Harada yayınma varsa, mənşəyi budur. Peyğəmbər (s) bu düşmənlə də mübarizə apardı.[1]

[1] Tehranın cümə namazı xütbələrindən: 2001.

## Hakimlik xüsusiyyətləri

Peyğəmbər (s) öz rəftarında ağıllı və sürətli idi. Heç bir hadisədə vaxtın ötməsinə qoymadı. Qənaəti və şəxsi paklığı vardı. Mübarək vücudunda heç bir mənfi cəhəti yox idi. Məsum və pak idi. Bunun özü təsir etməkdə ən mühüm amildir. Biz gərək öyrənək. Bu sözlərin çoxunu mənə deməlidirlər; mən öyrənməliyəm, məmurlar öyrənməlidirlər. Əməllə təsir göstərmək dillə təsir göstərməkdən dəfələrlə əhatəli və dərindir. Onun qətiyyəti və səlisliyi vardı. Peyğəmbər (s) heç zaman ikibaşlı danışmadı. Əlbəttə, düşmənlə qarşılaşdıqda dəqiq siyasi iş görürdü və düşməni səhvə salırdı. Çoxlu yerlərdə Peyğəmbər (s) düşməni mat qoymuşdur; istər hərbi baxımdan, istər siyasi baxımdan. Lakin möminlərlə və öz xalqı ilə həmişə açıq, şəffaf və aydın danışardı, siyasətbazlıq etməzdi. Lazım olan yerlərdə yumşaqlıq göstərirdi. Misal üçün, geniş macəraları olan Abdullah ibn Übəyy məsələsində. O heç zaman özünün xalqla və digərləri ilə, hətta düşmənlərlə və Məkkə müşrikləri ilə bağladığı əhd və peymanını sındırmadı. Peyğəmbər (s) onlarla bağladığı müqavilələri pozmadı. Onlar pozdular və Peyğəmbər (s) qətiyyətli cavab verdi. Heç zaman bir kəslə olan əhdini pozmadı. Buna görə, hamı bilirdi ki, bu şəxslə müqavilə bağladıqda onun müqaviləsinə güvənmək olar. Digər tərəfdən, Peyğəmbər (s) öz ibadətini əldən vermədi, Allahla rabitəsini günbəgün gücləndirdi. Döyüş meydanında öz qüvvələrini sahmana salıb həvəsləndirəndə, özü əlinə silah götürüb qətiyyətlə komandanlıq edəndə, yaxud onlara nə etməli olduqlarını başa salanda dizi üstə oturub əllərini Allah-Taalaya sarı ucaldır və xalqın qarşısında göz yaşı töküb Allahla danışmağa başlayırdı: "İlahi! Sən bizə kömək et. İlahi! Sən bizə dayaq ol. İlahi! Sən özün düşmənlərini dəf et!".

Nə onun duası qüvvəsini işlətməməyə səbəb olurdu, nə də qüvvəsini işlətməyi təvəssülü, duanı və Allahla rabitəni unutmağa; hər ikisinə diqqət yetirirdi. O heç zaman inadkar düşmən qarşısında tərəddüdə və qorxuya

düşmədi. Şücaət simvolu olan Əmirəlmöminin (ə) deyir ki, müharibələrdə nə zaman vəziyyət ağırlaşsaydı, Peyğəmbərə (s) pənah aparırdıq. Nə vaxt kimsə çətin yerlərdə zəiflik duysaydı, Peyğəmbərə (s) sığınardı.[1]

---

[1] Yenə orada.

## Quran ayələri

Əziz Peyğəmbər (s) oturub erkən İslam çağının müsəlmanları üçün Yaradanın varlığını isbat etmədi, onlar üçün Quran ayələrini oxudu və hər şey onlara aydınlaşdı. Əlbəttə, bu o demək deyil ki, onların düşüncəsi təsirlənmədi. Bəziləri düşüncə baxımından çox yüksəkdilər. Əmmar kimi bir gəncin düşüncə istedadı var və fəqihlik məqamına çatır. Amma biri də Əmmarın anası kimidir. Onun daha elə istedadı yoxdur ki, düşüncəsi zərif və dəqiq sahələrdə işləsin. Amma qəlbi elə məftundur və cəzb olunub ki, ən uca düşüncələrin işini görür.[1]

[1] Yazıçı cümə imamları ilə görüşdə çıxışından: 2002.

## Birillik xurma məhsulu

İşləməliyik. Güman olunmasın ki, müridlərinin və böyük səhabələrinin yolunun tozu olduğumuz əziz Peyğəmbər (s) təkcə dua ilə kifayətlənirdi. Dua edirdi, amma Allah yanında münacat edib kömək üçün göz yaşı tökən həmin Peyğəmbər (s) həm müdafiə alətlərini və günün silahını əldə edirdi, həm maddi və qida dayaqlarını təmin edirdi, həm də döyüş hiylələrini işlədirdi. Əhzab döyüşündə əziz Peyğəmbər (s) maraqlı siyasi hiylə ilə düşmən ordusu arasında ayrılıq saldı, amma səhabələrin çoxu ondan baş açmadılar. Peyğəmbər (s) gizli şəkildə xəbər göndərib hücumçu qəbilələrin bir-iki nəfərini çağırdı, dedi ki, əgər müharibədən kənara çəkilsəniz, Mədinənin birillik xurma məhsulunu sizə verəcəyik. Peyğəmbər (s) onların qəbul etməsini gözləmirdi də. Onlar dedilər ki, biz gedib fikirləşərik. Getdikdən sonra Peyğəmbər (s) səhabələri dedilər ki, ey Allahın Rəsulu, bunlar kimdir ki, biz Mədinənin xurmasını onlara verək. Cahiliyyət dövründə bizə hücum etsəydilər, biz öz xurmalarımızın qalıqlarını da bunlara verməyə razı olmazdıq. Peyğəmbər (s) təbəssüm etdi və onlara artıq şərh vermədi. Onlar getdikdə kafirlərin arasında söz gəzdi ki, bir qrup adam gedib Məhəmmədlə (s) razılaşıb. Buna görə onların bəzilərinin qəlbinə şübhə düşdü və aralarında böyük ixtilaf yarandı. Peyğəmbər (s) bu üsullardan da istifadə edirdi; həm müharibə, həm hiylə, həm təbliğat, həm informasiya, həm maneələri yoldan götürmək, həm az işləyənləri həvəsləndirmək. Bunların hamısını bir-birinin yanında işlədirdi.[1]

[1] İslam İnqilabının Keşikçilər Korpusunun komandirləri ilə görüşdə çıxışından: 2003.

## Minlərlə günəş

Əzəmətli Peyğəmbər (s) bütün peyğəmbər və övliyaların dəyərlər məcmusuna malikdir, tarixdə peyğəmbərlər və ilahi övliyalar silsiləsində mövcud olan bütün fəzilətlərin tam və kamilləşmiş nümunəsidir. Əzəmətli Peyğəmbərin (s) adını çəkdikdə sanki bu müqəddəs varlıqda İbrahimin (ə), Nuhun (ə), Musanın (ə), İsanın (ə), Loğmanın (ə), bütün saleh və dəyərli bəndələrin şəxsiyyəti, möminlər əmirinin və hidayət imamlarının şəxsiyyəti canlanır. Əzəmətli Peyğəmbəri varlıq aləminin ən parlaq ulduzuna bənzətmək, o böyük və müqəddəs varlığı belə adlandırmaq olar. Kəhkəşan minlərlə günəş sisteminin və minlərlə günəşin olduğu məcmudur. Əzəmətli Peyğəmbər (s) kəhkəşana bənzər bir varlıqdır. Onda minlərlə parlaq fəzilət nöqtəsi mövcuddur. Əzəmətli Peyğəmbərdə (s) elm əxlaqla birgədir, hökumət hikmətlə birgədir, Allah ibadəti xalqa xidmətlə birgədir, cihad mərhəmətlə birgədir, Allaha eşq Allahın məxluqlarına eşqlə birgədir, izzət təvazökarlıqla birgədir, realistlik uzaqgörənliklə birgədir, xalqa qarşı sədaqət və doğruluq siyasi mürəkkəbliklə birgədir, ruhun Allah zikrinə qərq olması cismin sağlamlığı ilə məşğul olmaqla birgədir. Onda dünya və axirət yanaşıdır, uca ilahi məqsədlər gözəl bəşəri məqsədlərlə yanaşıdır. Peyğəmbər (s) elə kamil nümunədir ki, Allah varlıq aləmində ondan kamil bir məxluq yaratmamışdır. O müjdə verəndir, qorxudandır, bütün bəşəriyyətə və bütün tarixə şahid və nəzarətçidir, bütün bəşəriyyəti Allaha sarı çağıran və insanların yoluna nur saçan çıraqdır: "Ey Peyğəmbər! Həqiqətən, Biz səni bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik! (Biz səni) Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik!"[1] [2].

---

[1] "Əhzab"/45-46.
[2] İmam Rzanın (ə) məqbərəsindəki çıxışdan: 2006.

## Müqavimətlə yanaşı olan mücahidlik

Cəmiyyətdə əxlaqın bərqərar olunması üçün iki iş lazımdır: biri bizim özümüzün çalışmamızdır, biri də Təlim və Tərbiyə Nazirliyi, tərbiyə, təhsil və elm mərkəzləri tərəfindən bütün səviyyələrdə insanlara verilən əxlaqi təlimlərdir. Bunlar vəzifəlidirlər. Yəni fəzilətli xarakterlərdə özümüzü mömin, müsəlman və Peyğəmbərə (s) tabe edək. Qəbahətli və çirkin xüsusiyyətlər haqda bir siyahı hazırlayaq və görək onların hansı bizdə var və sonra onu kənara qoymağa çalışaq. Həmçinin yaxşı xarakterlər üçün də bir siyahı hazırlayaq və çalışıb onları özümüz üçün əldə edək. Əlbəttə, bu yolda inkişaf amili məhəbbətdir; Allaha məhəbbət, Peyğəmbərə (s) məhəbbət, bu yola məhəbbət, əxlaq müəllimlərinə - yəni peyğəmbərlərə və məsum imamlara məhəbbət. İnsanı bu yolda sürətlə irəliyə aparan bu eşqdir. Bu eşqi özümüzdə günbəgün artırmalıyıq: "İlahi, öz məhəbbətini, səni sevənlərin məhəbbətini və məni sənə yaxınlaşdıran hər bir işin məhəbbətini mənə əta et!" Allah məhəbbəti, Allahın sevdiklərinin məhəbbəti və Allahın sevdiyi işlərin məhəbbəti; özümüzdə bu eşqləri cücərtməliyik.

Başqa bir məsələ müqavimət və dirəniş məsələsidir. Allah-Taala Hud surəsində peyğəmbərinə buyurur: "(Ey Rəsulum!) Sənə əmr edildiyi kimi, düz (yolda) ol (müqavimət göstər). Səninlə birlikdə iman gətirənlər (tövbə edib ardınca gedənlər) də düz (yolda) olsunlar və həddi aşmayın". Peyğəmbərin (s) bir hədisində deyilir ki, Hud surəsi məni qocaltdı. Çünki bu surə çox ağır idi. Hud surəsinin harası? Nəql olunmuşdur ki, məqsəd "(Ey Rəsulum!) Sənə əmr edildiyi kimi, düz (yolda) ol (müqavimət göstər)" ayəsidir. Bu ayə Peyğəmbəri (s) nə üçün qocaltmalıdır? Çünki ayədə buyurur ki, sənə əmr etdiyimiz kimi bu yolda möhkəm ol, müqavimət göstər və dözüm nümayiş etdir. Bu müqavimətin özü çətin işdir. Bu siratdır (yoldur); nümunəsini qiyamət günündə bizim üçün təsvir etdikləri Sirat körpüsü. Bizim buradakı əməlimizin və yolumuzun məğzi

həmin Sirat körpüsüdür. Biz indi Sirat körpüsü üzərində hərəkət edirik, gərək diqqətli olaq. Əgər insan özünün bütün rəftarında belə diqqətli olmaq istəsə, bu onu qocaldar. Lakin mənim fikrimcə, bundan daha mühümü sonrakı cümlədir: "Səninlə birlikdə iman gətirənlər (tövbə edib ardınca gedənlər) də düz (yolda) olsunlar (müqavimət göstərsinlər)". Möhkəm dayanmaq təkcə Peyğəmbərə (s) əmr olunmur. O, möminlərin əzəmətli cəmiyyətini də bu yolda dayanmağa vadar etməlidir. Bir tərəfdən həyat problemlərinin və digər tərəfdən öz nəfsani istəklərinin hücumuna məruz qalan, dünyanın bərbəzəyinə cəzb olunan və onlara sarı çəkilən taqətsiz insan ürəyinin istəklərinin hücumuna məruz qalan insanlar bu düzgün yoldan sola-sağa yayınırlar. Qızıl və gümüş sevgisi, pul sevgisi, cinsi ehtiras sevgisi, vəzifə sevgisi və digər sevgilərin hər biri insan qəlbinə bir kəmənd atıb onu özünə sarı çəkən amillərdir. İnsan bunların qarşısında möhkəm dayanmalı və ayağı sürüşməməlidir: "Səninlə birlikdə iman gətirənlər (tövbə edib ardınca gedənlər) də düz (yolda) olsunlar (müqavimət göstərsinlər)". Möminləri bu iki güclü cazibə - düşmənin təzyiqi və azğın qəlbin daxili təzyiqi arasında, bu iki maqnit arasında düzgün xətdə saxlamaq, hidayət etmək – çox güman ki, - Peyğəmbəri (s) qocaldan amildir.

Peyğəmbər (s) heç nə anlamayan və insani əxlaqdan xəbərdar olmayan bir xalqı elə insanlara çevirdi ki, Allahın mələkləri onların əzəmət və nurluluğu qarşısında kiçik olduqlarını duydular. Müqavimət budur. [1]

---

[1] Bəsic üzvləri ilə görüşdə çıxışından: 2006.

## Peyğəmbərin (ə) həyatı yalnız budurmu?

İnsan Peyğəmbərin (s) həyat tarixinə baxanda onda bilinməyən çoxlu məqam və mətləblərin olduğunu görür. Biz Peyğəmbərin (s) həyatından yalnız hansısa rəftar və hansısa söz barədə bir neçə pərakəndə rəvayəti çox zaman təkrarlayırıq. Peyğəmbərin (s) həyatı yalnız budurmu? Həzrətin Mədinədə yaşadığı on il ibrətli hadisələrin çoxluğundan mərəkədir. Biz bu gün elə bir şəraitdəyik ki, bəzi cəhətlərdən Peyğəmbər (s) dövrünün şəraitinə bənzəyir. Kiçik, böyük, alim və savadsız olmamızdan asılı olmayaraq, bizim hamımızın əziz Peyğəmbərin (s) həyatında mövcud olan bu dərs və işarələrin bəzisinə çox ehtiyacımız var. O həzrətin həyatının Mədinədə keçən son on ili hadisə və dərslə doludur. Doğrudan da əgər heç zaman yorulmayan adi çalışqan bir insan o on ildə görülən işi görmək istəsə, yüz il zamana ehtiyacı var; o qısa müddətdə - yəni on ildə görülən işi bəlkə yüz ildə görə bilər. Sözsüz ki, burada əziz Peyğəmbərin (s) işi ilə adi bir insanın işi arasındakı keyfiyyət fərqi də var. Həqiqətən əgər kimsə o on ildə görülən işlərin həcmi qədər iş görmək istəsə, yüz il çəkər. Biz çox zaman bu əzəmətdən xəbərdar olmuruq.[1]

---

[1] Ali Məhkəmənin məsul şəxsləri, hakimləri və əməkdaşları ilə görüşdə çıxışından: 2003.

## Mənim boynumda haqqınız varsa

Peyğəmbər (s) məscidə gəlib minbərin üzərində oturdu və buyurdu ki, kimin mənim boynumda haqqı varsa, alsın. Camaat ağlamağa başladı və dedilər ki, ey Allahın Rəsulu, bizim sənin boynunda nə haqqımız ola bilər. Buyurdu ki, Allah yanında rüsvay olmaq sizin yanınızda rüsvay olmaqdan ağırdır. Əgər mənim boynumda haqqınız varsa, əgər məndən alacağınız varsa, gəlin alın ki, qiyamət gününə qalmasın. Nə gözəl əxlaq! Bu sözləri deyən kimdir? Cəbrayılın həmsöhbət olması ilə fəxr etdiyi o uca insan. Lakin eyni zamanda camaatla zarafat etmir, ciddi şəkildə deyir ki, olmaya haradasa onun vasitəsi ilə bilmədən kiminsə haqqı tapdanmış olsun. Peyğəmbər (s) bu sözü iki-üç dəfə təkrar etdi. Çox zaman söylənilən budur ki, bir nəfər qalxıb dedi: "Ey Allahın Rəsulu! Mənim səndə haqqım qalıb. Sən bir dəfə dəvə ilə mənim yanımdan keçirdin. Mənim dəvəm sənə sarı gəldi və sən əsa ilə onu qovanda əsa mənim qarnıma dəydi. Mənim səndə belə bir haqqım qalıb". Peyğəmbər (s) köynəyini qaldırıb dedi ki, elə indicə qisas al, qiyamətə qalmasına qoyma. Camaat təəccüblə baxıb deyirdilər ki, görəsən bu kişi həqiqətən qisas alacaqmı, buna ürəyi gələcəkmi. Peyğəmbər (s) həmin əsanı gətirmək üçün bir nəfəri evə göndərdi. Sonra buyurdu ki, gəl götür və bu taxta ilə mənim qarnıma vur. O kişi qarşıya gəldi. Camaat mat qalmışdı, heyrətlə və xəcalətlə baxırdılar ki, bu kişi olmaya bu işi görmək istəsin. Amma birdən gördülər ki, o, Peyğəmbərin (s) ayağına düşdü, qanını öpdü və dedi ki, ey Allahın Rəsulu, mən sənin bədəninə toxunmaqla özümü cəhənnəm alovundan xilas edirəm.[1]

---

[1] Tehranın cümə namazı xütbələrindən: 2001.

## Namaz müjdəsi

Hədisdə göstərilir ki, namaz müjdəsi əzəmətli Peyğəmbəri (s) vəcdə gətirirdi, namazın həmişəlik müjdəçisi olan Bilala buyururdu ki, bizi rahatlandır, ey Bilal. Yəni ey Bilal, namaz müjdəsi olan azanla ürəyimi rahatlandır.[1]

[1] Şiraz şəhərində keçirilən illik namaz toplantısına müraciətdən: 1994.